19_27 IYUl-QARA.qxd 5/21/2026 7:58 PM Page 1

UNİKAL

№19 (2299) 22 may 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

# Azərbaycanın dərman bazarında qaranlıq işlər



Səh. 8



## "WUF13 məqsədlərinə doğru irəliləyir" - Anar Quliyev

*"WUF13 məqsədlərinə doğru irəliləyir". "Unikal" xəbər verir ki, bunu WUF13 çərçivəsində keçirilən "Çoxtərəflilik vasitəsilə mənzil təminatının inkişafı: Qlobal öhdəliklərdən yerli təsirə doğru" tədbirində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev deyib.*

*O bildirib ki, fokus artıq siyasətin hazırlanmasından onun effektiv icrasına keçməlidir: "Şəhərlər bir-biri ilə əlaqəli ekosistemlərdir və mənzil siyasəti nəqliyyat, əmək bazarı, ətraf mühit, enerji səmərəliliyi və sosial infrastrukturla birlikdə planlaşdırıldıqda daha effektiv olur. Çoxtərəflilik isə yalnız məsləhət platforması deyil, icra yönümlü əməkdaşlıq modelinə çevrilməlidir. Şəhərlərə maliyyələşmə, texnologiya transferi, institusional tərəfdaşlıqlar və bacarıq inkişafı lazımdır. Maliyyələşmə əsas çağırışlardan biridir. Dövlət resursları təkbaşına kifayət etmir, buna görə dövlət-özəl tərəfdaşlıqları...*

Səh. 3

## "Bu, quru sərhədlərinin açılmasına da təsir göstərəcək"



*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini, deputat Azər Badamov "Unikal"a müsahibə verib. O, Bakı-Tbilisi-Bakı sərnişin qatarının yenidən fəaliyyətə başlamasının əhəmiyyətindən, bunun quru sərhədlərinin açılmasına necə təsir göstərəcəyindən və Zəngəzur dəhlizinin...*

Səh. 4

## WUF13- Azərbaycanın beynəlxalq nüfuzunu artıran qlobal platforma!




*Bakıda BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) və Azərbaycan hökumətinin birgə təşkilatçılığı ilə keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) beşinci günü baş tutub. Forumun proqramı mənzil siyasəti, şəhərlərin böhranlardan sonrakı bərpası, maliyyələşdirmə mexanizmləri...*

Səh.11

## Bakının Baş planı: sakinləri hansı yeniliklər gözləyir?



*Azərbaycanın WUF13-ə ev sahibliyi etməsi ölkənin dayanıqlı şəhər transformasiyası, beynəlxalq əməkdaşlıq və innovativ şəhərsalma yanaşmalarına sadiqliyinin göstəricisidir. "Unikal" xəbər verir ki, bu fikirləri Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində keçirilən...*

Səh.7

19_27 IYUI-QARA.qxd 5/21/2026 7:58 PM Page 2



# "Toylar nə vaxtdan el şənliyi olub?!" - Əməkdar artist



***Əməkdar artist Elnur Zeynalov səsləndirdiyi fikirlərlə diqqət çəkib.***

Xanəndə şou-biznes və toy anlayışı ilə bağlı maraqlı açıqlamalar verib.

Zeynalov bildirib ki, onun üçün "şou-biznes" anlayışı müəyyən sənətçilərlə assosiasiya olunur: "Şou-biznes deyəndə mənim yadıma İlhamə Quliyeva, Aygün Kazımova, Röya, Faiq Ağayev, Tünzalə Ağayeva, Zülfiyyə Xanbabayeva düşür. Səhnədə şou yaradanlar onlardır. Mən indiyə kimi bir dənə də şou proqrama getməmişəm. Mən onların çıxış etdiyi səhnədə olmamışam".

Əməkdar artist sənət fəaliyyətlərini daha çox opera səhnəsi ilə əlaqələndirdiyini deyib: "Biz şoumuzu Opera Teatrında göstəririk, istəyən gəlib baxsın".

Toy məclisləri barədə də danışan Elnur Zeynalov bəzi ifadələrin yanlış istifadə edildiyini bildirib: "Toy isə başqa şeydir. Əlimizin adət-ənənəsidir. Bəziləri deyir ki, axşam el şənliyində idim, yorulmuşam. Toylar nə vaxtdan el şənliyi olub?". El şənliyi" anlayışı daha çox dövlət tədbirləri və bayramlarla bağlıdır. Bunlar Novruz bayramıdır və ya dövlətimizin keçirdiyi tədbirdir. Bir toy olursa, dəvətnamə vermirsənsə, kimsə gələr? El şənliyinə isə hamı gəlir". Bəzi ifaçılar "toy müğənnisi" adlandırılmaq istəmədikləri üçün bu ifadədən istifadə edirlər. Özlərini toy müğənnisi kimi qələmə vermək istəmirlər, ona görə el şənliyi adını qoyurlar".

Onun açıqlamaları sosial şəbəkələrdə müzakirələrə səbəb olub.

# Xalq artisti: "Adımdan danışıb pullar qazanıblar"

***Xalq artisti Könül Xasıyeva efirdə etdiyi açıqlama ilə diqqət çəkib.***

Milli.Az xəbər verir ki, xanəndə adından istifadə edərək pul qazanan şəxslərdən danışıb və illər əvvəl yaşadığı problemləri dilə gətirib.

Xasıyeva bildirib ki, əvvəllər telefon zənglərinə özü cavab vermədiyi üçün bəzi insanlar bundan sui-istifadə edib: "Əvvəllər telefonuma özüm cavab vermirdim. Çox zənglər olurdu. Adımdan danışıb pullar qazanıblar".

Sənətçi qeyd edib ki, zaman keçdikcə həmin şəxsləri ətrafından uzaqlaşdırıb: "Mən də o insanları zamanla ətrafımdan təmizləmişəm. Eşitdikcə onları həyatımdan uzaqlaşdırmışam".

Xalq artisti hazırda bütün işlərini daha diqqətlə idarə etdiyini də vurğulayıb. O bildirib ki, indi telefon zənglərinə şəxsən özü cavab verir: "İndi zənglərə də özüm baxıram".



Könül Xasıyeva konsert fəaliyyəti ilə bağlı da maraqlı məqama toxunub. Xanəndə çıxışlarından əvvəl ansambl üzvlərinin qonorarını öncədən ödədiyini açıqlayıb: "Konsertlərimdə bütün ansamblın pulunu əvvəldən verirəm".

Sənətçinin bu etirafı sosial şəbəkələrdə maraqla qarşılanıb.



# Türkiyədə daha 25 məşhur saxlanıldı - SİYAHI

***Türkiyədə məşhurları hədəf alan narkotik istintaqı çərçivəsində daha 25 nəfər haqqında həbs qərarı verilib.***

"Unikal" Türkiyə mətbuatına istinadən xəbər verir ki, Bakırköy Baş Prokurorluğunun apardığı araşdırmada bəzi məşhurların narkotik və stimullaşdırıcı maddələrdən istifadə etdiyinə dair əsaslı şübhələr aşkar edilib və buna görə də əməliyyat başlanılıb.

Keçirilən əməliyyatda aralarında müğənni Mabel Matiz, aktrisa Feyza Civelek, Onur Tuna və b. yaşadıqları mənzildə saxlanılıb. O, cümlədən aktrisa Serenay Sarıkaya haqqında da həbs qərarı çıxarıldığı, lakin onun hazırda xaricdə olduğu bildirilib.

**Barələrində həbs qərarı çıxarılan şəxslərin siyahısını təqdim edirik.**

1. Serenay SARIKAYA
2. Berkay ŞAHİN
3. Tan TAŞÇI
4. Yağmur ÜNAL
5. Mirgün Sırrı CABAS
6. Hakan AYDIN (BLOK 3)
7. Mabel MATİZ (Fatih KARACA)
8. Feyza CİVELEK
9. Niran ÜNSAL
10. Volkan BAHÇEKAPILI
11. Onur TUNA
12. Osman Haktan CANEVİ
13. Aslıhan TURANLI
14. Eren KESİMER
15. Kübra İmren SİYAHDEMİR
16. Mehmet Rahşan
17. Cansu TEKİN
18. Özgür Deniz CELLAT
19. Yasemin İKBAL
20. Tarık TUNCA BAKIR
21. Hanzede GÜRKANLAR
22. Aycan YAĞCI
23. Tuğçe POSTOĞLU
24. Eda DORA
25. Semiha BEZEK

# Fərda efirdə ağladı



***Aktyor Fərda Xudaverdiyev "Günə uğurla" verilişində kövrək anlar yaşayıb.***

O, proqram zamanı səslənən "Ana" mahnısından sonra göz yaşlarını saxlaya bilməyib. Mərhum anası Zeynəb xanımı xatırlayan Fərda bunları deyib: "Mən səhnəyə qayıtmaya da bilərdim. Amma mənə gülməyi, zarafatı anam öyrədib. Məni daim səhnələrdə görmək istəyirdi. Sağ olanda deyirdi ki, "Sənin zarafatına anan gülürsə, deməli, hər kəs güləcək. Kimsə gülmürsə, deməli, səni qısqanırlar və zarafatlarının dozasını azaltmaq istəyirlər".

Allah şahiddir, ruhumla dərk edib deyirəm ki, indiyə qədər özüm gülmədiyim, məni güldürməyən bir şeyi tamaşaçılarıma satmamışam. Öz tamaşaçım üçün bu səliqəni həmişə qorumuşam".

Qeyd edək ki, aktyorun anası ötən il vəfat edib. (Axşam.az)

19_27 IYUl-QARA.qxd 5/21/2026 7:58 PM Page 3





## XRİTDX WUF13-də dayanıqlı şəhərlərin inkişafındakı rolunu nümayiş etdirir

***Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) xüsusi stendlə təmsil olunur.***

"Unikal" xəbər verir ki, forum iştirakçıları stenddə ağıllı və rəqəmsallaşan şəhərlərdə kibertəhlükəsizliyin urban dayanıqlılığın təmin edilməsində oynadığı mühüm rolu əks etdirən təqdimatlar və interaktiv simulyasiyalarla tanış olurlar. Nümayiş etdirilən həllər rəqəmsal texnologiyaların şəhər həyatının bütün sahələrinə inteqrasiyası fonunda informasiya sistemlərinin təhlükəsizliyinin strateji əhəmiyyətini ön plana çıxarır.

Stenddə təqdim olunan simulyasiyalar nəqliyyat, rabitə, enerji və digər kritik xidmətlərə yönəlmiş potensial kibertəhdidlərin mümkün təsirlərini əyani şəkildə nümayiş etdirir. Təqdimatlar göstərir ki, rəqəmsal şəhər ekosistemində baş verə biləcək kiberinsidentlər təkcə texniki problem deyil, həm də şəhər xidmətlərinin fasiləsiz fəaliyyətinə, ictimai təhlükəsizliyə, iqtisadi aktivliyə və vətəndaşların rəqəmsal xidmətlərə etimadına təsir göstərə bilən amildir.

Stendlə tanış olan XRİTDX-nin Xidmət rəisinin müavini general-mayor Allahverən İsmayılova burada nümayiş etdirilən ssenari və interaktiv simulyasiyalar barədə ətraflı məlumat verilib. Bildirilib ki, təqdim olunan həllər Xidmətin dövlət informasiya ehtiyatlarının və kritik informasiya infrastrukturunun mühafizəsi sahəsində formalaşmış peşəkar təcrübəsi, kibertəhdidlərin monitorinqi və təhlili nəticəsində əldə edilmiş bilik və yanaşmalar əsasında hazırlanıb. Qeyd olunub ki, simulyasiyalar rəqəmsallaşan şəhərlərdə yarana biləcək potensial riskləri və onların mümkün nəticələrini vizuallaşdırmaqla yanaşı, qabaqlayıcı kibertəhlükəsizlik tədbirlərinin və kiberdavamlılığın təmin edilməsinin əhəmiyyətini nümayiş etdirir.

Eləcə də Allahverən İsmayılova WUF13 Şəbəkə İnfrastrukturunun Nəzarət Mərkəzində XRİTDX tərəfindən təmin edilən xidmətlərin vəziyyəti, şəbəkə infrastrukturunun fasiləsiz monitorinqi, kibertəhlükəsizlik nəzarəti və rəqəmsal xidmətlərin dayanıqlı fəaliyyəti istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib.

XRİTDX WUF13 platformasında bir daha vurğulayır ki, müasir və rəqəmsallaşan şəhərlərdə dayanıqlılığın əsas şərtlərindən biri kibertəhlükəsizlikdir. Ağıllı şəhərlərin təhlükəsiz və fasiləsiz fəaliyyəti rəqəmsal infrastrukturun etibarlı qorunmasından birbaşa asılıdır.

# Azərbaycanın dərman bazarında qaranlıq işlər

## Qeydiyyatsız dərmanlar apteklərə və özəl klinikalara necə ayaq acır? - İlginc təfərrüatlar...



***Ötən ay məlumat yayıldı ki, Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev 41 ünvanında yerləşən və Nigar Zeynalovanın direktoru olduğu "NNS KLİNİKA" MMC-yə məxsus özəl tibb müəssisəsində Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən 6-7 aprel tarixlərində plandankənar yoxlama keçirilib. Bu barədə Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzindən bildirilmişdi.***

Qeyd edilirdi ki, xidməti yoxlama zamanı lisenziya olmadan tibb fəaliyyəti və qeydiyyatsız dərman vasitəsindən istifadə faktı aşkar edildiyindən hüquqi şəxs barəsində inzibati tənbeh tədbiri seçilərək, inzibati xətalar məcəlləsinin 210.1 və 221.1 maddələri ilə inzibati xəta haqqında protokol tərtib edilib və aidiyyəti üzrə növbəti icraata göndərilib.

Əlavə olaraq "NNS KLİNİKA" MMC-yə məxsus özəl tibb müəssisəsinin cari fəaliyyətinin dayandırılması üzrə hüquq mühafizə orqanları qarşısında vəsatətin qaldırılması məqsədi ilə təqdimat təqdim edilib.

Cari əmək fəaliyyəti üzrə ixtisasına uyğun vəzifənin müəyyən edilməsi məqsədi ilə Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə rəsmi müraciət ünvanlanıb.

Adıçəkilən klinikanın cəzalandırılmasına səbəb olan amillər arasında qeydiyyatsız dərman vasitəsindən istifadə xüsusi maraq doğurur. Bu, son vaxtlar tez-tez rast gəlinən haldır. Belə ki, son illərdə Azərbaycanın aparıcı aptek şəbəkələrində ""Dokta", "Zeytun" və s.) belə saxta, qeydiyyatsız dərmanların satıldığı üzə çıxıb.

Ekspertlər bildirir ki, Azərbaycana saxta dərmanlar əsasən gömrükdən kənar yollarla, qaçaqmalçılıq şəbəkələri vasitəsilə gətirilir. Dəfələrlə gömrük əməkdaşları digər ölkələrdən külli miqdarda dərman preparatlarının qeyri-qanuni daşınmasının qarşısını alıb.

Ekspertlərin fikrincə, bu işdə əsas rol yerli biznes qurumlarına aiddir. Sahibkarlar xarici ölkələrdən dərmanın orijinalını əldə etdikdən sonra, əlavə qazanc üçün ucuz saxta alternativləri ölkəyə gətirir və Azərbaycanda baha qiymətə satırlar. Bəzi hallarda həkimlərin də belə işlərə cəlb edildiyi bildirilir.

Yerli KİV yazır ki, saxta dərmanlar, həmçinin rəsmi idxal formasında təqdim edilərək diqqətdən yayınır. Bəzi şirkətlər yüksək tələbat olan dərmanları qonşu ölkələrdən - Türkiyə, İran və digər ölkələrdən dövlət qeydiyyatına salınmadan gətirir. Son illərdə insulin preparatı "Ozempik"ın Türkiyə versiyasının ölkəmizə qanunsuz yolla gətirilməsi ilə bağlı məlumatlar yayılmışdı. Ekspertlər bildirdilər ki, bu preparat saxta sayıla bilməz, çünki orijinal tərkibdən hazırlanır, lakin rəsmi qaydada qeydiyyatdan keçirilmədiyi üçün həkimlər və istehsalçılarda narahatlıq doğurub.

Bir müddət əvvəl sosial məsələlər üzrə ekspert İlqar Hüseynli isə "kaspi.az"a açıqlamasında demişdi ki, müəyyən dərmanları xaricdə saxtalaşdırıb gətirirlərsə, burada gömrük orqanları məsuliyyət daşıyır: "Yox, əgər gömrük orqanlarında problem yoxdursa, dərmanlar ölkəyə gətirilərkən bütün qaydalara riayət olunursa, onda Analitik Ekspertiza Mərkəzi onlardan nümunələr götürüb analiz etməlidir. Uyğunsuzluq müşahidə edəcəksə, sertifikat verməməlidir. Kimsə özü üçün istifadəyə gətiribsə, buna artıq qanun icazə verir. Məsələn, bir fərd özü üçün 5 dərman gətirib, 3-nü satırsa, bu "Dərman vasitələri haqqında" qanunun 6-cı maddəsi ilə uyğunluq təşkil edir. Yəni bəlli miqdarda istifadə üçün gətirilməsinə qadağa yoxdur".

Dərmanların keyfiyyətsizliyi məsələsinə gəldikdə isə, mütəxəssis vurğulamışdı ki, keyfiyyəti azaltmağın da yolları var: "Keyfiyyətin göstəricisi dozadır. Yəni dərman preparatının üzərində əsas təsiredici molekulun dozası yazılır. Hər bir dərman preparatı ölkəyə daxil olduqdan sonra qeydiyyatdan keçir və göstəriciləri öz əksini tapır, keyfiyyət sertifikatı verilir. Əgər əsas təsir edən kimyəvi maddənin miqdarı azalıbsa, buna sertifikat verən qurum cinayət məsuliyyəti daşıyır. İkinci təsir amili odur ki, özəl şirkət gedir əsasən Asiya ölkələrindən bir zavod tapır, deyir ki, onun tərkibinə daxil edəcəyin əsas maddələrin dozasını azalt, məbləğini məndən ucuz al, amma baha sənədləşdir. Bu, "sövdələşmə" əsasında baş verə bilər. Həmin partiya ölkəyə rahatlıqla daxil olur. Bu zaman həm dərmanı gətirən, həm analiz edən, həm də istehsal edən korrupsiyanın elementinə çevrilir. Adətən xarici ölkə zavodları belə sövdələşməyə getmir. Elə bir hal mümkündürsə, deməli, işbazlarımız o zavodlara da yol tapa bilirlər".

Saxta dərmanlardan qorunmaq üçün vətəndaşlar bir sıra tədbirlərə əməl etməlidirlər (lent.az):

Rəsmi apteklərdən istifadə: Həmişə lisenziyalı, tanınmış apteklərdən dərman alın. Belə müəssisələrdə satılan məhsulların dövlət qeydiyyatından keçməsi təmin olunub (hərçənd, əvvəlcə də yazdığımız kimi, yaxın tarixdəki təcrübədən bəzi apteklərin qeydiyyatsız, yaxud saxta dərmanlar satması aşkarlanıb. Lakin hər bir halda lisenziyalı apteklərdən dərman alınması vacib şərtdir).

Qablaşdırmanı yoxlayın: Dərmanın qutusunun sağlam və dəyişdirilməmiş olduğuna əmin olun. İçlik vərəqində mütləq Azərbaycan dilində məlumatlar (tərkibi, dozası, istifadə qaydası) yer almalıdır. Qablaşmada dərman adı səhv yazılmamalıdır. Hər bir qanuni dərman vasitəsi üzərində nəzarət markası görünməlidir. Markanın olmaması dərmanın rəsmi idxal edilmədiyini göstərir.

Qiymətə şübhə ilə yanaşın: Əgər dərman orijinal qiymətindən xeyli ucuzdursa, diqqətli olun. Unutmayın ki, saxtalar ucuz istehsal olunur. Güvənmədiyiniz yerlərdən, tanımadığınız internet mağazaları, Facebook, İnstaqram, TikTok-da ucuz qiymətə kimlərinsə satdığı dərman mağazalarından qaçın.

Nömrə və sertifikatları yoxlayın: Dərmanın bəzən üzərində orijinal istehsalçı istinadları ola bilər, lakin bu kifayət etməz. Ən əsası, dərman vasitələrinin dövlət qeydiyyat nömrəsi olmalıdır. İstifadə müddəti qutuda və içlikdə eyni olmalıdır. Dərmanın rəngində, qoxusunda və formasında uyğunsuzluq olduqda ehtiyatlı olmaq lazımdır.

Laboratoriya və rəsmi müraciətlər: Şübhəli dərmanı mütləq ixtisaslaşmış laboratoriyada yoxlatdırın. Azərbaycana rəsmi yolla gətirilmiş dərmanların hər partiyası Analitik Ekspertiza Mərkəzinin laboratoriyasından keçib sertifikat alır. Şübhə yarandıqda həmin dərman qutusunun fotolarını və kassa qəbzini göndərərək məlumat verin.

Mütəxəssislər ümumiyyətlə internet və sosial şəbəkələrdən dərman sifariş etməməyi tövsiyə edir və ya ən azından bu zaman paket üzərindəki qeydiyyat nişanlarına xüsusi fikir verilmlidir .Qeyd edək ki, saxta dərmanı vizual olaraq aşkarlamaq çox çətindir; istehlakçılar yalnız bu cür yoxlamalarla şübhələri aradan qaldıra bilər. Həkimlər və aptek işçiləri əczaçılara tövsiyə edirlər ki, həmişə orijinal istehsalçı məlumatlarına və qeydiyyat nömrələrinə diqqət yetirsinlər.

***Sənan Mirzə***

19_27 IYUl-QARA.qxd 5/21/2026 7:58 PM Page 4



# Strateji tərəfdaşlıq taktiki xarakter daşıyır

## Politoloq: “Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəsi də beynəlxalq qanunların kobud şəkildə pozulması və Si Cinpinin təbirincə desək, “cəngəllik dünyasına” qayıdışdır”



***“Rusiya Prezidenti Vladimir Putinin və onun ətrafının Çinə səfərin nəticələrini yüksək qiymətləndirməsinə baxmayaraq, tərəflər iki ölkə arasında “Sibirin gücü - 2” strateji qaz kəmərinin inşası məsələsini razılaşdıra bilməyiblər”.***

“Unikal” xəbər verir ki, bu fikirləri “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib. O bildirib ki, Rusiya Prezidentinin sözçüsü Dmitri Peskov “tərəflər layihənin ümumi konturları və əsas parametrləri üzrə müəyyən bir anlaşmaya bütövlükdə nail olublar” fikrini səsləndirsə də, Pekindən bu mövzuda oxşar açıqlama yayımlanmayıb: “Bu boru kəməriylə bağlı müzakirələr 10 ildən çoxdur davam edir və hələ də nəticə yoxdur. Rusiya Ukrayna müharibəsinə görə Avropaya sata bilmədiyi qazın böyük həcmini Çinə satmağa çalışır. Pekin Moskva ilə tərəfdaşlığını davam etdirsə də, enerji idxalında şaxələndirmə prinsipinə üstünlük verir, yəni Çin neft və qaz alışında bir ölkədən asılı olmaq istəmir. Çin eyni zamanda Rusiyanın çıxılmaz vəziyyyətindən istifadə edərək qazın qiymətlərini aşağı salmağa çalışır. Digər tərəfdən Çin Rusiyaya yatırım qoymaqda ehtiyatlıdır, qonşusuna xammal bazası kimi baxır. Bu iki dövlətin strateji tərəfdaşlığı sadəcə taktiki xarakter daşıyır, hər ikisi ABŞ-ın hegemonluğunun zəifləməsində maraqlıdır”.

Politoloqun sözlərinə görə, Vladimir Putin çinli həmkarı Si Cinpinlə Ukrayna məsələsinin müzakirəsində də maraqlı məqamlar var. “Liderlərin ortaq bəyanatında Ukrayna “böhranının” ilkin səbəblərinin ortadan qaldırılması gərəkliyi vurğulanıb. Məlumdur ki, Kreml “ilkin səbəblər” dedikdə Donbasın Rusiyaya birləşdirilməsini, Ukraynanın NATO üzvülüyündən imtinasını və digər tələblərinin yerinə yetirilməsini nəzərdə tutur. Pekin Kremlin bu tələblərinə şərikdirmi? Məsələ burasındadır ki, Ukrayna kimi Çin üçün də ərazi bütövlüyü məsələsi “qırmızı çizgidir”. Buna baxmayaraq, Pekin Ukraynanın ərazi bütövlüyünü tanıdığı halda, Rusiyanın bu ölkədən ərazi qoparmasına seyrçidir. Müharibə Rusiya və Qərb ölkələrini taqətdən salır, bu isə Çinin maraqlarına uyğundur.

Liderlərin ortaq bəyanatında davamlı sülhə nail olmaq üçün BMT Nizamnaməsinin yerinə yetirilməsi vacibliyi göstərilib. Əslində məhz Rusiya BMT Nizamnaməsini kobud şəkildə pozaraq qonşu dövlətin ərazisini işğal edib və müharibəni davam etdirməkdə israrlıdır. Ortaq bəyanatda Ukrayna münaqişəsinin həlli üçün danışıqların davam etdirilməsinin əhəmiyyəti vurğulanıb. Bu bəndi pozan da Rusiyadır. Bu ölkənin Prezidenti bir şərtlə Kiyevlə danışıqlara razıdır ki, Ukrayna Rusiyanın şərtlərini qəbul etsin. Bu isə danışıq deyil, bir ölkənin o biri ölkə qarşısında ağ bayraq qaldırılmasıdır. Ukrayna ordusunun müqavimət gücü artır və Kiyev Kremlin danışıqlara başlamaq üçün şərtlərini qəbul etməyəcək. Kreml Pekinə xoş gəlsin deyə ortaq bəyanata “Rusiya Çinin Ukrayna böhranının diplomatik yollarla həllinə verdiyi dəstəyi yüksək qiymətləndirir” cümləsini əlavə edib.

Bu arada, Si Cinpinin Vladimir Putinlə görüşdə “beynəlxalq aləmdə qeyri-sabitlik yaşanır və bu “cəngəllik dünyasına” qayıtmaq təhlükəsi yaradır” cümləsi diqqət çəkib. Rusiyalı siyasətçilər və ekspertlər Si Cinpinin bu cümləsini İrana qarşı müharibəyə başlayan ABŞ-a aid edə bilərlər. Ancaq Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəsi də beynəlxalq qanunların kobud şəkildə pozulması və Si Cinpinin təbirincə desək, “cəngəllik dünyasına” qayıdışdır”, - deyə, E.Şahinoğlu fikrini tamamlayıb.

**Seymur Əli**

# “AzərEnerji” və “Azərişıq” şəhərsalma mövzusunda təqdimat keçirib

***Umumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində təşkil olunan beynəlxalq sərgidə birgə iştirak edən “AzərEnerji” və “Azərişıq” ASC-lər “Elektroenergetika obyektlərinin tikintisində şəhərsalma memarlığının Azərbaycan nümunəsi” mövzusunda təqdimat keçiriblər.***

”Unikal” xəbər verir ki, təqdimatda elektroenergetika sahəsində şəhərsalma və me-



marlıq prinsiplərinin tətbiqi, enerji infrastrukturunun inkişafında müasir yanaşmalar, eləcə də Azərbaycanda həyata keçirilən layihələrin xüsusiyyətləri barədə məlumat verilib. Enerji obyektlərinin şəhər mühitinə uyğunlaşdırılması, estetik və funksional memarlıq həlləri, ekoloji amillərin nəzərə alınması və dayanıqlı inkişaf prinsiplərinin əhəmiyyəti vurğulanıb.

Təqdimatın məqsədi Azərbaycanın bu sahədə təcrübəsinin paylaşılması və elektroenergetika infrastrukturu ilə şəhərsalma arasında qarşılıqlı əlaqənin inkişaf etdirilməsi olub.

# BMT rəsmisi: "Şəhər iqlimi və təhlükəsizlik yanaşmaları inteqrasiya edilməlidir"



***Şəhər iqlimi və təhlükəsizlik yanaşmaları inteqrasiya edilməlidir.***

”Unikal” xəbər verir ki, bunu BMT-nin İqlim Təhlükəsizliyi Mexanizminin məsləhətçisi Antonio Sampayo Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində təşkil olunmuş ”Daha təhlükəsiz və dayanıqlı şəhərlərin formalaşdırılması: Şəhər iqlimi, sülh və təhlükəsizlik üzrə siyasət sənədinin layihəsi”nin müzakirəsində bildirib.

”Biz tamamilə yeni bürokratiyaların yaradılmasını və ya ayrıca bir siyasət sahəsinin formalaşdırılmasını təklif etmirik. Əksinə, məqsəd mövcud sahələrdən əldə olunan dərsləri bir-biri ilə əlaqələndirməkdir. Mən Mattiyə dediyim ideyalardan biri odur ki, iqlim təhlükəsizliyi mexanizmləri artıq iqlim təhlükəsizliyi üzrə müşavirlər vasitəsilə fəaliyyət göstərir. Lakin biz şəhər iqlimi, sülh və təhlükəsizlik məsələlərini həmin mövcud çərçivələr vasitəsilə həyata keçirilən məsləhət və risk planlaşdırılması analizlərinə inteqrasiya edə bilərik. Hesabatda qeyd etdiyimiz digər mühüm məqam isə budur ki, iqlim stress amilləri, müdaxilə nöqtələri, məruz qalma elementləri göstərilir”, - deyə qeyd edib.

Ekspert əlavə edib ki, yerli idarəetmə iqlim təhlükəsizliyində əsas aktora çevrilməlidir: ”Yerli idarəetmə orqanları iqlim təhlükəsizliyi çərçivələrinə daha sıx inteqrasiya edilməlidir. Bələdiyyələr, yerli xidmət təminatçıları, məhəllə fəalları və vətəndaş cəmiyyəti çox vaxt artan təzyiqləri ilk müşahidə edən və ilk reaksiya verməsi gözlənilən aktorlardır. Bununla belə, onların resursları adətən məhdud olur və onlar, xüsusilə milli səviyyədə cəmləşən təhlükəsizlik və dayanıqlılıq müzakirələrində, yeni yuxarı səviyyəli iqlim təhlükəsizliyi diskursunda çox zaman kənarda qalırlar. Beləliklə, siyasət baxımından əsas nəticə ondan ibarətdir ki, şəhərlərə yalnız zəiflik və həssaslıq məkanı kimi deyil, həm də ön cəbhə aktorları, eyni zamanda həll yollarının və innovativ ideyaların mənbəyi kimi yanaşılmalıdır. Bələdiyyə potensialının gücləndirilməsi geniş və mürəkkəb gündəmin sadə elementi deyil, əksinə, iqlim, sülh və təhlükəsizlik gündəliyinin mərkəzi sütunlarından biri olmalıdır”.

# İşğaldan azad edilmiş ərazilərdə 15 dəqiqəlik şəhər konsepsiyası tətbiq olunur



***İşğal azad edilmiş ərazilərdə 15 dəqiqəlik şəhər və yaşıl şəhər yanaşması kimi tendensiyalar hər bir şəhərə tətbiq olunur.***

Bu barədə Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin nümayəndəsi Ramil Cahangirov Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində keçirilən tədbirdə bildirib.

Onun sözlərinə görə, insanların təhlükəsiz ərazilərə, rahat yaşayış məkanlarına qayıtmalarını təmin etmək çox vacibdir: ”Bu səbəbdən, lazım olan bütün şəhərsalma standartlarını tətbiq edilir. Hazırda, demək olar ki, bütün şəhərlərdə ilk yaşayış məhəlləri, məktəblər və uşaq bağçaların inşası tamamlanıb və ya tikinti mərhələsindədir. Daha uzunmüddətli perspektivdə, şəhərin yeni hissələri tikildikcə, polimərkezli yanaşma, 15 dəqiqəlik yanaşma və mobillik strategiyaları kimi prinsiplərin tətbiqinin vacibliyini görəcəyik”.

O bildirib ki, bütün bunlar şəhərlər üçün təkcə bu gün üçün deyil, həm də sabah üçün çox vacibdir: ”Bütün baş planlar 20 illik perspektivlə hazırlanır. Bu nöqtədən biz 20 il irəliyə baxırıq. Əlbəttə, bu 20 il ərzində müdaxilələr və dəyişikliklər edə bilərik, çünki baş planlar canlı sənədlərdir. Baş planlar şəhərlərlə birlikdə inkişaf edən sənədlərdir. Bu inkişaf nümunəsi unikaldır; bu, hər yerdə, hər gün rastlaşdığımız bir ssenari deyil. Buna görə də, baş plana bu yanaşma həm də unikal diqqət tələb edir”.

19_27 IYUl-QARA.qxd 5/21/2026 7:58 PM Page 5



# İlham Əliyevə təbriklər gəlməkdə davam edir



İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

"Unikal" xəbər verir ki, məktubda deyilir: "Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.Möhtərəm Prezident, əziz Qardaşım. Ölkənizin Müstəqillik Günü münasibətilə Zatialinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram. Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikasının Hökumətinə və xalqına daha da çox inkişaf və firavanlıq arzu edirəm".

***

Xorvatiya Respublikasının Prezidenti Zoran Milanoviç Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

Məktubda deyilir:"Hörmətli cənab Prezident. Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Xorvatiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi, xalqınıza tərəqqi və firavanlıq arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.Xorvatiya ilə Azərbaycanı çoxillik əməkdaşlıq və dostluq əlaqələri bağlayır. Əminəm ki, dost ölkələrimizin münasibətlərinin inkişafı və yeni istiqamətlərdə əməkdaşlığın həyata keçirilməsi ilə bağlı fəaliyyətimiz davam edəcəkdir. Hər iki ölkənin iqtisadi imkanları əməkdaşlığımızın daha da möhkəmlənməsi üçün stimul ola bilər. Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

***

Mərakeşin Kralı VI Məhəmməd Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

Təbrikdə deyilir: "Zati-aliləri, əziz Qardaşım. Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə böyük məmnunluq hissi ilə ən səmimi təbriklərimi çatdırır, Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, xalqınıza daha çox tərəqqi və firavanlıq arzulayıram. Mərakeş Krallığı ilə Azərbaycan Respublikası arasındakı sıx münasibətlərə çox böyük dəyər verirəm. Əməkdaşlığımızı onu dərinləşdirmək və qardaş ölkələrimizin vətəndaşlarının istəklərinə uyğun olan xüsusi tərəfdaşlıq qurmaq əzmimizlə daha da möhkəmlənir".

# İctimai nəqliyyatda bu model gedişhaqqı sistemini inkişaf etdirəcək

***İctimai nəqliyyatda "brutto müqaviləsi" modeli gedişhaqqı sistemini inkişaf etdirməyə imkan yaradacaq.***

"Unikal" xəbər verir ki, bunu Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) Strateji planlaşdırma üzrə rəhbəri Hüseyn Abdullayev Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumu (WUF13) çərçivəsində təşkil olunmuş "Yeni inkişaf üçün tranzit yönümlü planlaşdırma" adlı tədbirdə bildirib.

Onun sözlərinə görə, Azərbaycanda hazırda ictimai nəqliyyat növlərini bir-biri ilə daha yaxşı inteqrasiya etmək üçün əlavə olaraq yeni gedişhaqqı sistemi planlaşdırılır: "Həmçinin, avtobuslar üçün yeni maliyyələşdirmə və müqavilə sistemi hazırlayırıq, çünki əvvəllər onlar yalnız gedişhaqqı gəlirləri ilə işləyirdilər. İndi biz avtobuslar üçün "ümumi xərc müqaviləsi" ("brutto müqaviləsi") modelinin hazırlanmasının son mərhələsindəyik. Bu, bizə gedişhaqqı sistemini inkişaf etdirməyə və ictimai nəqliyyat növlərini bir nöqtədə daha yaxşı inteqrasiya etməyə imkan verəcək".

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxçıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# WUF13-də iştirak edənlərin sayı açıqlandı

***Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) indiyədək 38 mindən çox iştirakçı qeydə alınıb.***

"Unikal" xəbər verir ki, bu barədə BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) kommunikasiya direktoru Katerina Bezqaçina WUF13 çərçivəsində media nümayəndələri üçün təşkil olunan brifinqdə məlumat verib.

O bildirib ki, bu vaxtadək 175-dən çox ölkədən olan iştirakçılar tədbirdə iştirak ediblər.

# Tahir Budaqov Çinin Azərbaycandakı səfiri ilə görüşdü

***Mayın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey arasında görüş keçirilib.***



"Unikal" xəbər verir ki, görüşdə dövlət başçılarının məqsədyönlü siyasəti nəticəsində Azərbaycan-Çin münasibətlərinin dostluq və hərtərəfli strateji tərəfdaşlıq müstəvisində uğurla inkişaf etdiyi vurğulanıb. Bildirilib ki, iki ölkə arasında konstruktiv siyasi dialoq şəraitində son zamanlar iqtisadi-ticari, nəqliyyat-logistika, təhsil, turizm, mədəni, humanitar və digər sahələrdə əlaqələr daha da genişlənib.

Mayın 17-də Bakıda öz işinə başlayan və Çinin yüksəksəviyyəli nümayəndə heyətinin də təmsil olunduğu BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının qlobal urbanizasiya gündəliyi ilə əlaqədar aktual mövzuların müzakirəsi və beynəlxalq müstəvidə dayanıqlı şəhərsalma siyasətinin təşviqi baxımından əhəmiyyəti qeyd olunub. Forum çərçivəsində mayın 18-də Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Can Quoçi arasında keçirilən görüşün əhəmiyyəti vurğulanıb. Separatizmin bütün forma və təzahürlərini pisləyən Azərbaycanın "Vahid Çin" siyasətinə, həmçinin Çinin ölkəmizin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə qətiyyətli dəstəyinin müstəsna önəm daşıdığı qeyd edilib.

Görüş zamanı YAP ilə Çin Kommunist Partiyası (ÇKP) arasında əlaqələrin sürətli inkişafından məmnunluq ifadə olunub. 2024-cü ilin noyabrında hakim partiyalar arasında imzalanmış Əməkdaşlıq memorandumundan irəli gələn vəzifələrin uğurla icra edildiyi bildirilib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov səfər zamanı göstərilən yüksək diqqətə və qonaqpərvərliyə görə Çin Kommunist Partiyasının rəhbərliyinə və səfirə təşəkkürünü bildirib. O, əməkdaşlığın dərinləşdirilməsinə hədəflənən qarşılıqlı səfərlərin davamlı xarakter daşıyacağına və birgə fəaliyyət nəticəsində bundan sonra da ardıcıl nailiyyətlərin qazanılacağına inamını ifadə edib.

Səfir Lu Mey YAP nümayəndə heyətinin səfərlə bağlı xoş təəssüratlarının məmnunluq doğurduğunu diqqətə çatdırıb. Çinin Azərbaycanla əməkdaşlığa böyük önəm verdiyini qeyd edən səfir qarşılıqlı əlaqələrin genişləndirilməsi üçün mövcud imkanlardan səmərəli istifadənin vacibliyinə toxunub.

Görüşdə cari ildə nəzərdə tutulan tədbirlər, partiyalararası əməkdaşlığın gələcək istiqamətləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ərdoğan Zakir Həsənovla təlimi izlədi

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "EFES - 2026" çoxmillətli birgə müştərək təliminin Yüksək Səviyyəli Müşahidəçi Gününə qatılıb.***



"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Prezidentinin Ofisi məlumat yayıb.

Türkiyənin İzmir vilayəti ərazisində keçirilən təlimin Yüksək Səviyyəli Müşahidəçi Gününə qatılanlar sırasında bir çox ölkələrin yüksəkrütbəli hərbçiləri, o cümlədən Azərbaycanın müdafiə naziri Zakir Həsənov da olub.

Qeyd edək ki, "EFES - 2026" çoxmillətli birgə müştərək təlimi Azərbaycan Ordusunun və ümumilikdə 50 ölkədən 10 min 300 hərbi qulluqçunun iştirakı ilə keçirilir.

# "Vahid xəzinə hesabının qalığının idarəetməyə verilməsi Qaydaları" təsdiqlənib

***Nazirlər Kabineti "Vahid xəzinə hesabının qalığının idarəetməyə verilməsi Qaydaları"nı təsdiq edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, hökumətin "Büdcə ili ərzində vahid xəzinə hesabının sərbəst qalığının idarəetməyə verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 6 aprel 2007-ci il tarixli qərarı qüvvədən düşüb.

Qaydalar "Büdcə sistemi haqqında" qanununda dəyişiklik edilməsi barədə" 14 iyul 2025-ci il tarixli qanununun tətbiqi və bununla əlaqədar ölkə Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" dövlət başçısının 4 avqust 2025-ci il tarixli fərmanını icras etmək məqsədilə büdcə ilinin istənilən tədqim gününə vahid xəzinə hesabının qalığının idarəetməyə verilməsi mexanizmini müəyyən edir.

Qaydalarda istifadə olunan anlayışlar "Büdcə sistemi haqqında" qanunda və digər normativ hüquqi aktlarda nəzərdə tutulan mənaları ifadə edir.

# Bu şəxslərə kirayəyə görə hər ay 100 manat veriləcək

***Dövlət orqanlarının işğaldan azad edilmiş ərazilərdə işləyən və ya xidmətdə olan, qeydiyyat ünvanı iş (xidmət) yerindən 50 km-dən artıq uzaqda yerləşən (hərbi qulluqçulara münasibətdə bu şərt nəzərə alınmadan) əməkdaşları üçün mənzil kirayəsinə görə hər ay 100 manat məbləğində vəsait ödəniləcək.***

"Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı Dövlət orqanlarının işğaldan azad edilmiş ərazilərdə işləyən və ya xidmətdə olan əməkdaşları üçün mənzil kirayəsi xərclərinin ödənilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında Qərar imzalayıb. Qərara əsasən, bu vəsait işğaldan azad edilmiş ərazilərdə işləyən və ya xidmətdə olan ailə üzvlərindən yalnız biri üçün ödənilir.

Dövlət orqanlarının işğaldan azad edilmiş ərazilərdə işləyən və ya xidmətdə olan, qeydiyyat ünvanı iş (xidmət) yerindən 50 km-dən artıq uzaqda yerləşən (hərbi qulluqçulara münasibətdə bu şərt nəzərə alınmadan) əməkdaşları ilə birlikdə yaşayan və 3 nəfərdən artıq olmamaqla hər bir ailə üzvü üçün isə 50 manat məbləğində əlavə vəsait ödənilir.

19_27 IYUl-QARA.qxd 5/21/2026 7:58 PM Page 6



# Alena Əliyeva "Zəkaların mübarizəsi II" olimpiadasının final mərhələsində

***Mayın 21-də Tofiq İsmayılov adına 6 nömrəli məktəb-liseydə ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdlərinin iştirakı ilə "Zəkaların mübarizəsi II" olimpiadasının final mərhələsi keçirilib.***

"Unikal" AZƏRTAC-a istinadən xəbər verir ki, Alena Əliyeva tədbirdə iştirak edib. Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib. Sonra Ümummilli Lider Heydər Əliyevin, həmçinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Heydər Əliyev Fondu və Elm və Təhsil Nazirliyinin birgə layihəsi olan olimpiadanın final mərhələsi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilib. Final mərhələsi bilik yarışı və şahmat turniri olmaqla, komanda formatında təşkil edilib.

Rəsmi açılış mərasimində çıxış edən Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev bildirib ki, olimpiadanın əsas məqsədi gənc nəsildə strateji düşüncə, düzgün qərarvermə və liderlik bacarıqlarını inkişaf etdirməkdir. O diqqətə çatdırıb ki, final mərhələsinə ölkənin müxtəlif regionlarını təmsil edən şagirdlər qatılıb. Yarış sağlam rəqabət mühiti formalaşdırmaqla yanaşı, bilik və zəka üzərində qurulmuş mühüm platforma rolunu oynayır. F.Qarayev əlavə edib ki, layihə milli-mənəvi dəyərlərin təşviqinə və azərbaycançılıq ideyasının möhkəmləndirilməsinə də xidmət edir.



Daha sonra yarışlara start verilib.

Final mərhələsində bilik yarışı istiqaməti üzrə Bakı şəhərinin Xəzər, Nəsimi, Yasamal, Xətai və Nərimanov rayonları, həmçinin Gəncə, Naxçıvan, Mingəçevir və Şəki şəhərləri, Abşeron, İsmayıllı, Lerik, Saatlı, Bərdə, Qazax, Qusar, Zəngilan və Neftçala rayonlarının komandaları iştirak ediblər.

Şahmat turnirində isə Bakı şəhərinin Xətai, Xəzər, Sabunçu, Səbail və Yasamal rayonları ilə yanaşı, Gəncə, Naxçıvan, Sumqayıt və Şəki şəhərləri, Ağcabədi, Ağsu, Beyləqan, Cəbrayıl, Göyçay, Quba, Masallı, Neftçala və Tovuz rayonlarının komandaları mübarizə aparıblar.

Bilik yarışı üzrə final mərhələsində 18 komanda, ümumilikdə 108 şagird iştirak edib. Məktəblilər riyaziyyat, rəqəmsal texnologiyalar, təbiət və humanitar elmlər, mədəniyyət və incəsənət sahələri üzrə sualları cavablandırıblar.

Şahmat turnirində isə hər biri 4 nəfərdən ibarət 18 komandanın tərkibində ümumilikdə 72 şagird iştirak edib.

Mükafatlandırma mərasimində çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov qalibləri təbrik edərək bildirib ki, intellektual yarışlar gənclərin formalaşmasında mühüm rol oynayır. Onun sözlərinə görə, bu cür müsabiqələr şagirdlərin dünyagörüşünün, yaradıcı düşüncə qabiliyyətinin və komanda ilə işləmək bacarıqlarının inkişafına böyük töhfə verir.

Nazir müavini qeyd edib ki, 2030-cu ilədək inkişaf strategiyasında əsas prioritetlərdən biri insan kapitalının və innovativ cəmiyyətin formalaşdırılmasıdır. Bu isə yaradıcı və təşəbbüskar gənclərin yetişdirilməsini tələb edir. O vurğulayıb ki, belə yarışlar gənclərin potensialının üzə çıxarılması və gələcək uğurlarının formalaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

F.Qurbanov deyib ki, olimpiadada 5 mindən çox şagird iştirak edib. O, qaliblərin yüksək bilik və bacarıq nümayiş etdirdiyini vurğulayaraq bütün iştirakçılara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

"Çox şadam ki, artıq iki ildir bu olimpiada həyata keçirilir. Dəstək üçün Heydər Əliyev Fonduna və Elm və Təhsil Nazirliyinə təşəkkür edirəm. Təhsil uğura gedən yoldur. Əziz şagirdlər, bu, sizin uğurunuzdur. Olimpiadanın bütün iştirakçılarını təbrik edirəm. İnanıram ki, gələcəkdə bu yolu birlikdə davam edəcəyik", - tədbirdə çıxış edən Alena Əliyeva bildirib.

Daha sonra olimpiadanın nəticələrinə əsasən qalib komandalar müəyyənləşdirilib, hər iki kateqoriya üzrə qızıl, gümüş və bürünc medallar sahiblərinə təqdim olunub.

# "WUF13 məqsədlərinə doğru irəliləyir" - Anar Quliyev



**"WUF13 məqsədlərinə doğru irəliləyir".**

"Unikal" xəbər verir ki, bunu WUF13 çərçivəsində keçirilən "Çoxtərəflilik vasitəsilə mənzil təminatının inkişafı: Qlobal öhdəliklərdən yerli təsirə doğru" tədbirində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev deyib.

O bildirib ki, fokus artıq siyasətin hazırlanmasından onun effektiv icrasına keçməlidir: "Şəhərlər bir-biri ilə əlaqəli ekosistemlərdir və mənzil siyasəti nəqliyyat, əmək bazarı, ətraf mühit, enerji səmərəliliyi və sosial infrastrukturla birlikdə planlaşdırıldıqda daha effektiv olur. Çoxtərəflilik isə yalnız məsləhət platforması deyil, icra yönümlü əməkdaşlıq modelinə çevrilməlidir. Şəhərlərə maliyyələşmə, texnologiya transferi, institusional tərəfdaşlıqlar və bacarıq inkişafı lazımdır. Maliyyələşmə əsas çağırışlardan biridir. Dövlət resursları təkbaşına kifayət etmir, buna görə dövlət-özəl tərəfdaşlıqları və innovativ maliyyə mexanizmləri vacibdir.

Azərbaycan hesab edir ki, dayanıqlı mənzil və urban dayanıqlılıq inteqrasiya olunmuş planlaşdırma və uzunmüddətli strateji baxış tələb edir. Xüsusi nümayəndəlik institutu azad olunmuş ərazilərdə koordinasiyanı təmin edərək bu sahədə effektiv model yaradıb.

Azərbaycan həmçinin Dayanıqlı İnkişaf Məqsədlərinin lokallaşdırılmasını həyata keçirərək onları yerli planlaşdırmaya inteqrasiya edir. Bugünkü müzakirələr çoxşaxəli əməkdaşlığın gücləndirilməsi və qlobal urban çağırışlara daha effektiv cavab verilməsi üçün mühüm imkan yaradır".

# Milli Kitabxanada "Şəhərsalma və Memarlıq ili" mövzusunda təqdimat keçirilib



***21 may tarixində Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan "Şəhərsalma və Memarlıq ili" (Azərbaycan və ingilis dillərində) mövzusunda Elektron məlumat bazasının təqdimat mərasimi keçirilib.***

Tədbiri Milli Kitabxananın direktoru, professor Kərim Tahirov açaraq şəhərsalma və memarlıq sahəsinin ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynadığını vurğulayıb. O bildirib ki, son illərdə Azərbaycanda həyata keçirilən genişmiqyaslı quruculuq və abadlıq layihələri şəhərlərin müasir simasının formalaşmasına və infrastrukturun inkişafına mühüm töhfə verir.

Professor qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə tarixi və dini abidələrin bərpası, yeni yaşayış məntəqələrinin salınması Azərbaycanın memarlıq ənənələrinin qorunması ilə yanaşı, regionun davamlı inkişafına da xidmət edir. O, vurğulayıb ki, Qarabağda həyata keçirilən quruculuq işləri yalnız infrastruktur layihələri deyil, həm də milli-mədəni irsin yenidən dirçəldilməsi və gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Sonra "Şəhərsalma və Memarlıq ili" (Azərbaycan və ingilis dillərində) (https://anl.az/el/emb/Sehersalma_ve_Memarliq/index.htm) mövzusunda Elektron məlumat bazasının təqdimatı keçirilib.

Təqdimat zamanı bildirilib ki, yaradılan elektron məlumat bazası şəhərsalma və memarlıq sahəsində mövcud olan zəngin informasiya resurslarının sistemli şəkildə istifadəçilərə çatdırılması məqsədini daşıyır.

Bazada rəsmi sənədlər, Heydər Əliyev və şəhərsalma, işğaldan azad edilmiş ərazilərdə şəhərsalma fəaliyyəti, Azərbaycanın qədim və müasir memarlıq nümunələri, elmi məqalələr, kitablar, foto və video materiallar toplanıb. Elektron məlumat bazası Azərbaycan və ingilis dillərində hazırlanıb. Bu isə həm yerli oxucuların, həm də xarici tədqiqatçıların ölkəmizin memarlıq irsi və şəhərsalma siyasəti haqqında daha geniş məlumat əldə etməsinə imkan yaradacaq.

# BMT-nin rəsmisi qlobal mənzil böhranının həlli üçün yeni çoxtərəfliliyə çağırış edib

***BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax qlobal mənzil böhranının həlli üçün yeni çoxtərəfliliyə çağırış edib.***

O, WUF13 çərçivəsində keçirilən "Çoxtərəflilik vasitəsilə mənzil təminatının inkişafı: Qlobal öhdəliklərdən yerli təsirə doğru" tədbirində deyib ki, WUF13 çərçivəsində keçirilən müzakirələrdə qlobal mənzil böhranı, məlumatlara çıxışda bərabərsizlik və yeni çoxtərəflilik modeli əsas mövzular kimi ön plana çıxıb.

"Mənzil və şəhər inkişafı sahəsində mövcud problemlərin həlli üçün yalnız elmi tədqiqatlara əsaslanmaq kifayət etmir. Praktikada çalışan mütəxəssislərin prosesə daha çox cəlb olunması və "birgə isteh-



sal" yanaşmasının tətbiqi vacibdir. Qlobal "Şimal" və "Cənub" arasında məlumatlara çıxış və institusional imkanlar baxımından ciddi fərqlər mövcuddur. Bəzi məlumatların ümumiyyətlə əlçatan olmaması və ya "qapalı" qalması qərarların qəbuluna mənfi təsir göstərir. Ona görə də çalışan praktiklərin çoxu gördükləri işləri sənədləşdirmək və məlumat bazası yaratmaq imkanına malik deyil. Bu səbəbdən dövlətlər, cəmiyyətlər və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın gücləndirilməsi tələb olunur.

Siyasi və texniki sahələr arasında boşluq da var. Şəhər planlaşdırması və mənzil siyasəti təkcə texniki deyil, eyni zamanda siyasi xarakter daşıyır, xüsusilə torpaq istifadəsi kimi məsələlərdə ciddi siyasi qərarlar rol oynayır. WUF13 çərçivəsində ilk dəfə dövlət başçıları və ekspertlərin eyni platformada bir araya gələrək şəhərsalma və mənzil siyasətini texniki səviyyədə müzakirə etməsi mühüm irəliləyiş oldu".

19_27 IYUl-QARA.qxd 5/21/2026 7:58 PM Page 7






## "Şuşada bütün layihələr milli irsə uyğun icra olunur" - Aydın Kərimov

***Şuşa ilə bağlı ən böyük çətinlik və özəllik ondan ibarətdir ki, bütün layihələrimiz milli irsin qorunması standartlarına və tələblərinə uyğun gəlməlidir.***

”Unikal” xəbər verir ki, bu barədə Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən “Şəhərsalmanın yenidən qurulması - Azərbaycan şəhər transformasiyası üçün İnnovasiya Laboratoriyasını necə yaratdı?” mövzusunda tədbirdə danışıb.

O bildirib ki, bura memarlıq üslubu da daxildir: “Əgər Şuşadakı yaşayış kompleksimizə gəlib baxsanız, binaların fasadlarında nadir və yerli təbii daşlardan istifadə edildiyini və çox maraqlı görünüş alındığını müşahidə edə bilərsiniz”.

## Əlillik bu hallarda müddətsiz təyin edilir

***Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş əlilliyin müəyyən olunması meyarlarına uyğun olaraq bir sıra hallarda əlillik müddətsiz təyin edilir.***



“Unikal” xəbər verir ki, bu barədə DOST TV-nin efirində yayımlanan “Sosial saat” verilişində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin departament müdirinin müavini İlkin Yusifov məlumat verib.

O bildirib ki, geri dönməz proseslər olduqda, müəyyən anatomik və ya psixi pozuntu hallarında əlillik birbaşa müddətsiz təyin olunur. Həmin Qərarla təsdiqlənmiş meyarlara əsasən 300-ə yaxın halda əlillik müddətsiz təyin olunur.

Həmçinin Əlilliyin qiymətləndirilməsi Qaydasına əsasən orqanizmin funksiyalarının pozulması 81-100 faiz aralığında (I dərəcə) ardıcıl olaraq 4 il, 61-80 faiz aralığında (II dərəcə) ardıcıl olaraq 10 il və 31-60 faiz aralığında (III dərəcə) ardıcıl olaraq 15 il müddətində müəyyən olunduğu halda növbəti qiymətləndirmə zamanı əlillik müddətsiz müəyyən edilir.

Bundan başqa, qanunvericiliyə əsasən pensiya yaşına çatmasına görə sosial ödəniş almaq hüququ olan şəxslərə də əlillik müddətsiz təyin olunur.

# “Bu, quru sərhədlərinin açılmasına da təsir göstərəcək”

## Azər Badamov: “Azərbaycan tərəfi texniki əsaslandırma ilə bağlı dərhal addım atdığından, siyasi iradə nümayiş etdirdiyindən tərəfləri də işləri tez yekunlaşdırmağa təşviq edir”

***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini, deputat Azər Badamov ”Unikal”a müsahibə verib. O, Bakı-Tbilisi-Bakı sərnişin qatarının yenidən fəaliyyətə başlamasının əhəmiyyətindən, bunun quru sərhədlərinin açılmasına necə təsir göstərəcəyindən və Zəngəzur dəhlizinin açılmasının işğaldan azad olunmuş ərazilərin inkişafına necə təsir edəcəyindən danışıb.***

***-Azər müəllim, son günlər Bakı-Tbilisi-Bakı sərnişin qatarının yenidən fəaliyyətə başlaması gündəmə gəlib. Azərbaycan və Gürcüstan mayın 26-dan Bakı-Tbilisi-Bakı marşrutu üzrə gündəlik sərnişin qatarları xidmətlərinin bərpası barədə razılığa gəliblər. Bu marşrutun yenidən fəaliyyətə başlaması regionda nəyi dəyişəcək?***

-Qloballaşma şübhəsiz ki, iqtisadiyyatlara müxtəlif təsirləri olan mürəkkəb bir prosesdir. Daha çox qloballaşan ölkələr bu prosesdən kənarda qalan ölkələrə nisbətən daha yüksək iqtisadi artıma nail olur və yoxsulluğun daha böyük miqyasda azalmasına şərait yaradır. Qloballaşma olmadan yüksək artım tempini davam etdirmək çətindir. Lakin bir çox ölkə qloballaşmanın təklif etdiyi imkanlardan tam yararlana bilməyib. Buna səbəb ölkələr arasında sərvətlərin qeyri-mütənasib bölünməsi, həmçinin, birbaşa coğrafi amillərlə bağlı olan məhdudiyyətlərdir. Ticarət, nəqliyyat və iqtisadiyyat kimi sahələrdə regional əməkdaşlıq ölkələrin qloballaşmanın faydalarından istifadə imkanlarını gücləndirə və bu fərqləri aradan qaldırmağa kömək edə bilər. Müxtəlif regionların öz aralarında siyasi və iqtisadi əməkdaşlığı dərinləşdirdiyini müşahidə edirik. Çünki regional iqtisadi əməkdaşlıq müasir dünya nizamında nisbətən yeni bir tendensiya kimi ortaya çıxır və dövlətləri daha sıx koordinasiyaya məcbur edir. Güc koordinasiya olunmadıqda iqtisadi və siyasi rəqabətin öhdəsindən gəlmək son dərəcə çətin olur. Regiondakı siyasi və iqtisadi müxtəliflik əməkdaşlıq vasitəsilə aradan qaldırıla bilər və bu, dövlətlərin güc balansına və xalqların rifahına fundamental təsir göstərir.

Daxili bazarların kiçik ölçüsünün aradan qaldırılması, istehsalda daha yüksək ixtisaslaşma və müasir texnologiyaların tətbiqi böyük bazarlara çıxış imkanları yaradır. Bu da sənaye sahələrinin genişlənməsinə, yeni ixracyönümlü sahələrin formalaşmasına, ixracın şaxələndirilməsinə və müəyyən məhsullardan asılılığın azalmasına imkan verir. Regional əməkdaşlıq həm də inkişaf etməkdə olan ölkələrin yeni texnologiyaların tətbiqi də daxil olmaqla ortaya çıxan çətinliklərin öhdəsindən gəlmək potensialını artırır. Regional ticarətin asanlaşdırılması tədbirləri beynəlxalq sərhədlər üzərindən əməliyyat xərclərini azaldır və maneələrin aradan qaldırılmasına əhəmiyyətli təsir göstərir. Təbii ki, bu, çoxşaxəli bir prosesdir. Bu istiqamətdə fikir ayrılıqlarından daha çox ortaq baxışların formalaşdırılması vacibdir. Beləliklə, regionun prioritetlərinin həllinə yönələn hər bir addım müsbətdir. Uzun müddətdir ki, regional əməkdaşlığın Cənubi Qafqaz ölkələri tərəfindən də nəzərə alındığını görürük. Regional əməkdaşlıq dedikdə isə yalnız Azərbaycan-Gürcüstan, Azərbaycan-Ermənistan və ya Azərbaycan-Rusiya münasibətləri nəzərdə tutulmamalıdır. Burada kompleks yanaşma ortaya qoyulmalıdır. Məsələn, Bakı-Tbilisi-Bakı sərnişin qatarının yenidən fəaliyyətə başlaması Gürcüstan-Azərbaycan münasibətlərinə, iki ölkə arasındakı ticarət dövriyyəsinə, turizmin və xidmət sektorunun inkişafına, eləcə də regional inteqrasiyaya töhfə verəcək.



***-Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan vətəndaşlarının və Azərbaycana vizasız gəlmə hüququ olan bütün xarici ölkə vətəndaşlarının Azərbaycan ilə Gürcüstan arasında 25 may saat 00:00-dan dəmiryol nəqliyyatı vasitəsilə giriş-çıxışına icazə verilib. Bu məsələ yaxın vaxtlarda quru sərhədlərinin açılmasına öz təsirini göstərə bilər?***

-Təbii ki, biz artıq regionun canlandığının şahidiyik. Bu canlanma şübhəsiz ki, Azərbaycanın Zəfərindən sonra sürətlənib. Çünki mövcud və görünməyən maneələrin aradan qaldırılması məhz bundan sonra mümkün olub. Cənab Prezident İlham Əliyev hər zaman diplomatiyanın önəminə diqqət çəkir. Vizasız gediş-gəliş imkanlarının genişlənməsi, dəmir yolu və digər nəqliyyat vasitələri ilə sərhəd keçidlərinin asanlaşdırılması regionun iqtisadi potensialını artıracaq və quru sərhədlərinin açılmasına da təsir göstərəcək. Burada əsas məqamlardan biri Cənubi Qafqazın siyasi və iqtisadi xəritəsinin yenidən formalaşmasıdır. Bu prosesdə regional inteqrasiya, xalqlar arasında mübadilə və gediş-gəlişin genişlənməsi mühüm rol oynayır. Quru yollarla əlaqələrin güclənməsi daha sıx inteqrasiyaya gətirib çıxaracaq, xalqlar arasında inam və etimadın möhkəmlənməsinə şərait yaradacaq.

***-Siz də bu məsələni qeyd etdiniz. Cənubi Qafqazın siyasi və iqtisadi xəritəsi Azərbaycanın Zəfərindən sonra yenidən formalaşdırılır. Azad edilmiş ərazilərdə dəmir yolları yenidən qurulur. Artıq Ağdama dəmir yolu ilə getmək mümkündür. Gələn il Xankəndiyə dəmir yolu ilə getmək mümkün olacaq. İşğaldan azad olunan ərazilərdə dəmir yollarının inkişafını necə qiymətləndirirsiniz və gələcək perspektivlər nədən ibarətdir?***

-İşğaldan azad olunmuş ərazilərdə aparılan işlər də genişmiqyaslıdır. Gediş-gəlişin və müxtəlif növ mübadilələrin həyata keçirilməsi etimadın göstəricisidir və bu da dayanaqlı sülhün formalaşmasına xidmət edir.

***-Gələn il Xankəndi dəmir yolunun istifadəyə veriləcəyini qeyd etdik. Bu dəmir yolu davam edəcək və Zəngəzur dəhlizi ilə Naxçıvanı birləşdirəcək. Zəngəzur dəhlizinin açılması hansı ildə mümkün ola bilər və bu istiqamətdə dəmir yolunun istifadəyə verilməsi hansı üstünlükləri yaradacaq?***

-Zəngəzur dəhlizinin açılması zərurətdir. Azərbaycanın Naxçıvanla quru, birbaşa əlaqəsi olmalıdır. Dəhliz sülhün fundamental elementlərindən biridir. Reallaşması istiqamətində işlər gedir. Azərbaycan tərəfi texniki əsaslandırma ilə bağlı dərhal addım atdığından, siyasi iradə nümayiş etdirdiyindən, tərəfləri də işləri tez yekunlaşdırmağa təşviq edir. Reallıq isə odur ki, proses təkcə bizdən asılı deyil. Regionda baş verən ciddi dəyişikliyin balansı ciddi dəyişdiyini görürük. İmpulsiv qərarla uzaq, strateji və təmkinli yanaşmağa daha yaxın davranmaq lazımdır. Dünyada baş verən proseslər də Azərbaycanı mühüm logistika mərkəzinə çevirir. Vaxtilə Orta Dəhlizə alternativ kimi baxılsa da, Rusiya-Ukrayna müharibəsi, ABŞ-İsrail-İranın bitməyən gərginliyi və qlobal iqtisadi qeyri-müəyyənlik bu marşrutun əhəmiyyətini daha da artırıb.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzərində yerləşdiyi üçün bu proseslərdə mühüm rol oynayır. Ölkə həm də qurucu mövqe sərgiləyərək regional ticarət xəritəsinin formalaşmasında mərkəzi aktora çevrilir. Çin, Mərkəzi Asiya, Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən marşrut böyük əhəmiyyət daşıyır. Bu, həm də geosiyasi balans deməkdir. Dəmir yolu infrastrukturunun inkişafı logistika proseslərini sürətləndirir və marşrutların optimallaşdırılmasına imkan yaradır. Burada xüsusi diqqət çəkən məqamlardan biri yaşıl və rəqəmsal logistika həllərinin tətbiqidir. Bu baxımdan Orta Dəhliz üzrə inteqrasiya daha da dərinləşir. Nəticədə yük daşımalarının həcmi artır, iqtisadiyyat üçün daha yüksək əlavə dəyər formalaşır. Böyük dövlətlər və iri iqtisadiyyatlara malik regionlar böhran dövrlərində daha təhlükəsiz marşrutlar axtarır. Bu isə təkcə resurs və coğrafi üstünlük deyil, həm də geosiyasi balansın düzgün müəyyənləşdirilməsi deməkdir. Azərbaycan bu baxımdan tərəflərin etimad göstərdiyi dövlətdir.

***Anar Kəlbiyev***

19_27 IYUl-QARA.qxd 5/21/2026 7:59 PM Page 8



# Daha bir biznesdə məmur barmağı...

## Azərbaycandakı lombardların fəaliyyəti ilə bağlı yeni və sensasiyalı iddialar - Əslində, hamısı qanunsuz fəaliyyət göstərir?




***Azərbaycanda lombardlarla bağlı normativ-hüquqi bazanın hazırlanması yenidən gündəmə gəlib. Mərkəzi Bankının sədri Taleh Kazımov bildirib ki, lombard fəaliyyəti ilə bağlı normativ-hüquqi baza hazırda razılaşdırılma mərhələsindədir və yaxın gələcəkdə bu sahəyə də tənzimləmə gətiriləcək.***

Uzun illərdir ekspertlər lombard sektorundakı əsas problemlərdən danışırlar: girovların real bazar qiymətindən aşağı qiymətləndirilməsi, yüksək faizlər, qeyri-şəffaf şərtlər və vətəndaşların çıxılmaz vəziyyətdə seçim qarşısında qalması...

Mövzunu araşdıran musavat.com yazıb ki, lombard bazarında vahid qayda və standartların olmaması həm qiymətləndirmədə, həm də faiz siyasətində ciddi fərqlər yaradır.

"Unikal"ın araşdırmasına görə isə lombardlarla bağlı şikayətlər son vaxtlar yenidən artıb. Məsələn, bu ilin fevralında məlum olub ki, bir qrup sakin yerli KİV-ə girov qoyduqları qızıl-zinət əşyalarını geri ala bilmədiklərini bildiriblər. Onların sözlərinə görə, götürdükləri borcu və hesablanmış faizləri tam şəkildə ödəsələr də, lombard tərəfindən müxtəlif bəhanələrlə qızılları qaytarılmır. Məsələ təkcə yerli vətəndaşları deyil, Azərbaycanda yaşayan və ya müvəqqəti fəaliyyət göstərən Türkiyə vətəndaşlarını da əhatə edir. Bu isə problemin miqyasının düşündüyündən daha geniş ola biləcəyini göstərir.

Bir müddət əvvəl isə maliyyə bazarı üzrə ekspert Əkrəm Həsənov sensasiyalı açıqlama verib. "Azərbaycanda lombard fəaliyyətinin lisenziyalaşdırılmasına başlanılsa, bu bazar iştirakçılarının 90 faizi bağlanacaq" deyən ekspertin sözlərinə görə, ölkəmizdə qanuni fəaliyyət göstərən lombard yoxdur. Sitat: "Fəaliyyət göstərənlərin hamısı qanunsuzdur. Qanunsuzluq nə ilə bağlıdır? Lombard elə bir kommersiya qurumudur ki, öz pulu hesabına vətəndaşlara kredit verir. Kredit təminatının müqabilində vətəndaşlar müəyyən qiymətli əşyasını lombardda saxlanc olaraq girovda saxlayır. Həmin əşyalar adətən qızıl-zinət əşyaları olur. Kredit qayıtmayanda lombard qanuna görə borclunu məhkəməyə verməlidir. Həmin qızıl-zinət əşyaları hərracda satılmalıdır. Lombard da pulunu götürməlidir. Reallıqda Azərbaycanda bu proses necə baş verir? Heç bir lombard öz pulu hesabına kredit vermir. Bunun sübutu kimi Dövlət Vergi Xidmətinə daxil olub lombard sözünü axtarışa versək, orada qeydiyyatdan keçmiş lombardların nizamnamə kapitallarının çox az məbləğdə olduğunu (5-10 manat) görərik. Bu da o deməkdir ki, lombardların öz pulu budur. Yəni bunlar özləri də borc alırlar".

Qeyd edək ki, bu gün Azərbaycanda həqiqətən də lombardların fəaliyyətini tənzimləyən xüsusi bir qanun yoxdur. Mağazaların fəaliyyəti necə adi qaydada və xüsusi öhdəlik, lisenziya olmadan tənzimlənirsə, lombardlarda da durum fərqli deyil. Bir sözlə, bu qurumların fəaliyyəti tənzimlənmir. Əsas problem qanunvericilikdən qaynaqlandığına görə də həmin qurumlarla bağlı banklar və sığorta şirkətlərindən fərqli olaraq xüsusi tələblər qoyulmayıb. Lisenziyalaşdırma olmadığına görə isə təbii ki, nəzarət də yoxdur. Çünki nəzarəti lisenziyanı verən qurum həyata keçirir.

Onu da deyək ki, "Lombardlar haqqında" qanun layihəsi hələ 2022-ci ildə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin yaz sessiyası üçün iş planına daxil edilmişdi. Lakin layihənin qəbulu mümkün olmadı və bu günədək gecikir. Cari ilin fevralında Mərkəzi Bankın "Lombardlar haqqında" qanunun yeni layihəsini hazırladığına dair açıqlama verildi. Ölkənin baş bankının sədri Taleh Kazımov bu barədə açıqlama verdi. Ancaq sözügedən qanun layihəsinin nə vaxt parlamentin müzakirəsinə çıxarılacağı və qəbul edilib-edilməyəcəyi müəmmalı olaraq qalır. Hərçənd, yazının əvvəlində Kazımovun bir neçə gün əvvəl oxşar mövzuda yeni açıqlama verdiyini vurğulamışdıq. Mərkəzi Bank rəhbəri bir daha bildirmişdi ki, "Lombardlar haqqında" yeni qanun layihəsi hazırlanır və qanunun qəbulunun məqsədi istehlakçıların hüquqlarının daha yaxşı qorunmasını təmin etməkdir.

Biznes sektoru üzrə məsləhətçi Çinarə Ağayevanın sözlərinə görə isə Azərbaycanda lombard fəaliyyəti ilə bağlı yeni normativ-hüquqi bazanın hazırlanması istiqamətində verilən son mesajlar göstərir ki, bu sektor artıq diqqət mərkəzindədir. Ekspert "Azpolitika"ya açıqlamasında deyib ki, lombardlar Azərbaycanda uzun müddət "alternativ maliyyə çıxışı" kimi fəaliyyət göstərib. Bank kreditlərinə çıxışı məhdud olan əhali üçün bu xidmətlər sürətli və əlçatan maliyyə mənbəyi rolunu oynayıb. Lakin bu əlçatanlıq çox vaxt yüksək qiymətə başa gəlib. Mövcud reallıq göstərir ki, faiz dərəcələri əksər hallarda qeyri-şəffafdır. Girovların qiymətləndirilməsi subyektiv xarakter daşıyır. Müqavilə münasibətləri hüquqi standartlara tam uyğun deyil. Bu isə sektoru həm istehlakçı hüquqları, həm də maliyyə sabitliyi baxımından riskli edir. Bəzi lombardlar bazar dəyərinin 30-40%-i ilə girov qəbul edir. Lombard kreditləri üzrə aylıq yüksək faizlər və əlavə xərclər nəzərə alındıqda, effektiv illik faiz dərəcəsi bəzi hallarda 100%-i keçə bilir. Müştəri ilə münasibətlər çox vaxt hüquqi deyil, "praktiki" qaydalarla tənzimlənir. Bu model qısa müddətdə qazanc gətirsə də, uzunmüddətli perspektivdə dayanıqlı biznes modeli deyil.

Ekspert əlavə edib ki, lombardlarla bağlı normativ-hüquqi bazanın artıq müvafiq qurumlarla razılaşdırılma mərhələsində olması əslində, bu sahədə yeni mərhələnin başlanğıcını göstərir.

Yeri gəlmişkən onu da deyək ki, bəzi iddialara görə, Bakıdakı iri lombardların bəziləri müəyyən vəzifəli şəxslərin ailə üzvlərinə, yaxınlarına məxsusdur və elə ona görə də həmin qurumlara gözün üstə qaşın var deyən tapılmır.

***Sənan Mirzə***



## Bu şəxslər güzəştli şərtlərlə mənzil əldə edə bilər

***Biz çalışırıq ki, ev təminatı məsələsində maliyyələşməni əlçatan və dayanıqlı edək.***

"Unikal" xəbər verir ki, bu barədə maliyyə nazirinin birinci müavini Anar Kərimov Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Mənzil maliyyələşdirilməsi üçün yeni bir saziş" mövzusunda keçirilən panel iclasında çıxışı zamanı deyib.

"Biz nəinki gələcəyi formalaşdırırıq, gələcək də bizi formalaşdırır. Ev siyasəti ev tikməklə məhdudlaşmır. 2030-cu ilədək dünyanın 30 faiz əhalisinin ev təminatı məsələsinə ehtiyacı olacaq", - deyə nazir müavini əlavə edib.

Nazir müavini bildirib ki, mənzil siyasətində maliyyələşmə ilə yanaşı idarəetmə də vacibdir: "İpoteka modelini çox vacib edən nədir? O, təkcə dövlət dəstəyini deyil, həm də kapital bazarı maliyyələşməsini birləşdirir. Çünki biz çox danışırıq ki, bu, təkcə maliyyələşmə deyil, həm də idarəetmə ilə bağlıdır. Beləliklə, bir tərəfdən hökumət həssas qruplar üçün güzəştli sosial ipotekaları dəstəkləyir; digər tərəfdən isə daxili kapital bazarında istiqraz emissiyası mövcuddur. Və bu balans çox önəmlidir.

Standart ipotekalar vətəndaşlar üçün əlçatandır, lakin qaçqınlar, məcburi köçkünlər, hərbi qulluqçular, sosial cəhətdən əhəmiyyətli qruplar, müəllimlər və təbii ki, müharibədən qayıdan şəxslərin ailələri kimi həssas qruplar üçün güzəştli mənzillər də mövcuddur".

## Bakıda tramvay xətləri 2028-ci ilə qədər istifadəyə veriləcək

***Biz şəhərdə ictimai nəqliyyata fokuslanmışıq və bunun üçün əlimizdən gələni edirik.***

"Unikal" xəbər verir ki, bunu WUF13 çərçivəsində keçirilən Bakı şəhərinin Baş Planına həsr olunmuş tədbirdə AYNA-nın Bakı Regional İdarəsinin müdiri Tərlan Səfərov deyib.

O bildirib ki, hər gün 2300 avtobus istifadəyə verilir, təxmini 5 milyon istifadəçi ondan istifadə edir: "Bu gün şəbəkə genişlənməsi inkişaf edir. Metrodaxili sistemləri də inkişaf etdiririk. Şəhərdaxili əlçatamlığı artırmaq üçüm 10 yeni strategiyamız var. Metroda qırmızı və yaşıl xətləri həyata keçiririk. Tramvay yolları üçün mümkün şərait nəzərdən keçirilir, 2028-ci ilə qədər bunu istifadəsinə çalışırıq".

## AZAL Naxçıvana uçuşları yenidən təxirə saldı

***"Azərbaycan Hava Yolları" (AZAL) Naxçıvan Beynəlxalq Aeroportunun yaxınlığında davam edən əlverişsiz hava şəraiti səbəbindən Bakı-Naxçıvan-Bakı marşrutu üzrə uçuşları yenidən təxirə salıb.***

"Unikal" AZAL-a istinadən xəbər verir ki, sərnişinlərin təhlükəsizliyi əsas götürülərək bütün zəruri tədbirlər görülür.

Hava şəraiti sabitləşdikdən sonra reyslərin əvvəlki qaydada icrasına davam ediləcək.

19_27 IYUl-QARA.qxd 5/21/2026 7:59 PM Page 9



# "Azərbaycan ən böyük yenidənqurma və qayıdış proqramlarını həyata keçirir" - Emin Hüseynov



***Bu çağırış böhrandan sonra təkcə şəhərləri deyil, həm də həyatları, icmaları və ümidləri necə yenidən qurmaqla bağlıdır. Azərbaycan üçün bu tamamilə şəxsi bir məsələdir. Təxminən 30 il ərzində məcburi köçkünlər bir gün öz evlərinə və icmalarına qayıtmaq ümidi ilə yaşayıblar. Azad edilmiş ərazilərdəki bütöv şəhərlər, kəndlər dağıdılıb. Bəzi rayonlarda dağıntıların miqyası o qədər böyük idi ki, arxada xarabalığa çevrilmiş şəhər mənzərələri və çökmüş mənzil sistemləri qalıb.***

"Unikal" xəbər verir ki, bunu bunu Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Böhrandan sonra mənzil bərpa və yenidənqurma işlərinin mərkəzindədir" mövzusunda tədbirdə deyib.

O bildirib ki, lakin yenidənqurma yalnız kərpic və betondan ibarət deyil. Bərpa o zaman başlayır ki, insanlar öz doğma yurdunda gələcəyi yenidən təsəvvür edə bilirlər. Bu, "aidolma hissi" adlanır.

Bu gün Azərbaycan regionda ən böyük yenidənqurma və qayıdış proqramlarından birini həyata keçirir. Bərpa və yenidənqurma işlərinə böyük maliyyə vəsaitləri ayrılıb. Mənim təmsil etdiyim Ağdam, Füzuli və Xocavənd rayonlarında şəhər və kəndləri davamlılıq, inklüzivlik və dayanıqlılıq kimi uzunmüddətli baxışa əsaslanaraq tam təməldən yenidən qururuq.

# Nazir müavinindən vətəndaşların ev təminatı ilə bağlı açıqlama



***Biz çalışırıq ki, ev təminatı məsələsində maliyyələşməni əlçatan və dayanıqlı edək.***

"Unikal" xəbər verir ki, bu barədə maliyyə nazirinin birinci müavini Anar Kərimov Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Mənzil maliyyələşdirilməsi üçün yeni bir saziş" mövzusunda keçirilən panel iclasında çıxışı zamanı deyib.

"Biz nəinki gələcəyi formalaşdırırıq, gələcək də bizi formalaşdırır. Ev siyasəti ev tikməklə məhdudlaşmır. 2030-cu ilədək dünyanın 30 faiz əhalisinin ev təminatı məsələsinə ehtiyacı olacaq", - deyə nazir müavini əlavə edib.

# Birinci Qarabağ müharibəsinin veteranı vəfat etdi



***Birinci Qarabağ müharibəsi veteranı Hüsiyev Əkbər Hüsü oğlu dünyasını dəyişib.***

"Unikal" xəbər verir ki, ehtiyatda olan zabit uzun sürən xəstəlikdən sonra 66 yaşında vəfat edib.

Qeyd edək ki, Ə.Hüsiyev Daxili Qoşunların sıralarında şərəfli xidmət yolu keçmiş, 1-ci Qarabağ müharibəsində müxtəlif vəzifələrdə, o cümlədən hərbi hissə komandiri olaraq iştirak etmiş və ağır yaralanmışdı.

# Yüksək vəzifəlilərin 5 milyon manatlıq qaçaqmalçılığında yeni pərdə

## Ruslan Eyyubovla general oğlunun həbs müddəti uzadıldı - Məhkəmə baxışına start verildi

***5 milyon manatlıq siqaret qaçaqmalçılığı ilə bağlı ittiham olunan Bakı-Hövsan Beynəlxalq Ticarət Dəniz Limanının sahibi Ruslan Eyyubov, limanın rəisi Rəşad Daşdəmirov və Dəniz Nəqliyyatı və Enerji Resursları Baş Gömrük İdarəsinin Liman Məntəqəsinin rəisi Fərid Usubov hakim qarşısına təkrar çıxarılıblar.***

Bu barədə verilən xəbərdə bildirilib ki, prokuror təqsirləndirilən şəxslər barəsində seçilmiş həbs qətimkan tədbiri müddətinin uzadılmasını istəyib.

Binəqədi Rayon Məhkəməsi ibtidai araşdırmanın davam etməsini və əlavə sübutların toplanmasını nəzərə alaraq təqdimatı təmin edib.

"Qafqazinfo"nun məlumatında deyilir ki, qərara əsasən, Ruslan Eyyubov, Rəşad Daşdəmirov və



Fərid Usubovun həbsdə saxlanılma müddəti daha 3 ay uzadılıb.

Qeyd edək ki, təqsirləndirilən şəxslər 5 ay əvvəl həbs ediliblər. Cinayət işi Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılır.

F.Usubov Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin müavini olmuş general-mayor Cəbrayıl Usubovun oğludur.

Adları çəkilənlərin, eləcə də istintaqla şəxsiyyətləri araşdırılan qeyrilərinin mütəşəkkil dəstə halında cinayət əlaqəsinə girməklə Birləşmiş Ərəb Əmirlikləri və İran İslam Respublikasından ümumilikdə 5,4 milyon manatdan artıq dəyərdə aksiz markası ilə markalanmalı olan tütün məmulatlarını belə marka olmadan gəmi ilə qeyd edilən Limandan qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə keçirmələrinə əsaslı şübhələr müəyyənləşdirilib.

Toplanmış ilkin sübutlar əsasında həmin şəxslər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq olaraq:

- 206.4 (mütəşəkkil dəstə tərkibində külli miqdarda qaçaqmalçılıq),

- 213-1.2.1, 213-1.2.2, 213-1.2.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrarən külli miqdarda aksiz markası ilə markalanmalı olan malları belə marka olmadan satış məqsədi ilə saxlama) və

- 308.2-ci (ağır nəticələrə səbəb olmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb ediliblər.

Bu arada 5 milyonluq siqaret qaçaqmalçılığı ilə bağlı cinayət işləri artıq bir-bir məhkəmə baxışına təqdim edilir. İbtidai istintaqı bitənlərdən biri Məhərrəmov Fariz Ramiz oğludur.

Fariz Məhərrəmov rəsmi olaraq heç bir dövlət qurumunda çalışmayıb. İttihamda yazılıb ki, Fariz xaricdən qaçaq yollarla xüsusilə külli miqdarda siqaret tütünlərinin daşınmasında və ölkə ərazisində satışını həyata keçirməkdə təqsirləndirilir. Bu cinayətdə o, dəstə üzvləri ilə birgə fəaliyyət göstərib, uzun müddət qaçaqmal siqaretlərin ölkənin müxtəlif ərazilərində satışı ilə məşğul olub.

Qeyd olunan əməlinə görə ona Cinayət Məcəlləsinin 206.4 (qaçaqmalçılıq-xüsusilə külli miqdarda) və 213-1.2.1-ci (mütəşəkkil dəstə halında külli miqdarda aksiz markası ilə markalanmalı olan malların belə marka olmadan qanunsuz dövriyyəsi) maddələri ilə yekun ittiham elan edilib. Təqsiri sübuta yetirilsə, onu 10 ildən çox həbs cəzası gözləyir.

Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində toplanmış materiallar baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Təqsirləndirilən şəxs həbsdə mühakimə ediləcək.

Onu da deyək ki, 5 milyon manatlıq siaqret qaçaqmalçılığı ortaya çıxdıqda yerli KİV yazırdı ki, bu kontrabanda Azərbaycanda artıq təsadüfi gəlir axtarışından çıxaraq planlı, mərhələli və "özünü doğruldan" fəaliyyət modelinə çevrilib. Həmin modelin mərkəzində insanın risklə qazanc arasında apardığı daxili hesab dayanır. Qaçaqmalçılığa cəlb olunan şəxslərin əksəriyyəti bunu klassik cinayət kimi yox, "sistemdən ağıllı şəkildə yararlanmaq" kimi qavrayır. Onların psixologiyasında bu fəaliyyət oğurluq deyil, fürsətdir.

"Yeni sabah"ın bildirdiyinə görə, Azərbaycanda aşkar olunan faktlar göstərir ki, qaçaqmalçılıq əsasən dəniz yolu ilə həyata keçirilir. Gəmilərlə ölkəyə gətirilən yüklər sənədlərdə başqa məhsul kimi göstərilir, ya da konteynerlərin gizli hissələrində saxlanılır. Bəzi hallarda avtomobil nəqliyyatı ilə sərhəddən keçirilmə, yaxud tranzit yüklərin ölkə daxilində "itməsi" üsullarından da istifadə olunur. Bu prosesdə əsas risk nöqtəsi gömrük nəzarətidir və istintaq materiallarında zaman-zaman vəzifəli şəxslərin bu zəncirin bir hissəsinə çevrildiyi iddia olunur.

Mahiyyət sadədir: tütün məmulatları rəsmi vergilərdən və aksiz rüsumlarından yan keçməklə ölkəyə gətirilir və bazara buraxılır. Rəsmi idxalda məhsulun qiymətinin böyük hissəsini məhz vergilər təşkil etdiyi üçün, qaçaq yolla gətirilən siqaret həm satıcıya yüksək gəlir, həm də alıcıya ucuzluq vədi verir. Bu, cəmiyyət daxilində səssiz razılaşma yaradır: alan da, satan da riskin varlığını bilir, amma hər iki tərəf öz qazancını əsaslandırır.

Siqaret qaçaqmalçılığını bu qədər cəlbedici edən əsas səbəb qazancdır. Rəsmi idxal zamanı siqaretin üzərinə aksiz, ƏDV və digər rüsumlar əlavə edildikdə məhsulun maya dəyəri kəskin artır. Qaçaqmalçılıq yolu ilə gətirilən siqaret isə bu xərclərdən azad olduğu üçün bazara xeyli ucuz çıxarılır. Mütəxəssislərin və açıq mənbələrin təxmini hesablamalarına görə, bir blok (10 qutu) siqaretin qaçaqmal maya dəyəri ilə satış qiyməti arasında fərq bəzən 40-60 faiz təşkil edir. Böyük həcmli partiyalarda isə ümumi dövriyyədən əldə olunan təmiz qazanc faizi orta hesabla 30-50 faiz arasında dəyişir. Yəni milyonluq bir partiyada yüz minlərlə, bəzən isə milyon manata yaxın xalis gəlir əldə etmək mümkün olur. Məhz bu səbəbdən riskin yüksək olmasına baxmayaraq, bu sahəyə maraq azalmır.

***Toğrul Əliyev***

19_27 IYUl-QARA.qxd 5/21/2026 7:59 PM Page 10



# İcra başçılarının bitmək bilməyən foto qalmaqalları

## Çəmənliyə xalça sərənlər, kral kimi gül çələngi altından keçənlər, soyuq zalda yalnız öz yanına istilik sobası qoyduranlar - Və daha nələr, nələr!

***Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilovun Qamışlıgöl kənd sakinləri ilə görüşündən paylaşılan fotolar sosial şəbəkələrdə müzakirələrə səbəb olub. Belə ki, görüş zamanı icra başçısının kölgədə, kənd sakinlərinin isə günəşin altında dayanmaları etiraz yaradıb, icra başçısı tənqid hədəfinə tuş gəlib.***

Məsələ ilə bağlı pravda.az-a açıqlama verən Cəlilabad RİH başçısının köməkçisi Tahir Carçıyev şəkillərdən aydın görünən faktı təkzib etməyə çalışıb. O deyib ki, tədbir saat 10:00-da keçirilib: "Cənab başçı tədbiri günorta vaxtı keçirmir ki, istidir. Axmaq adamdır, paylaşıb... Yazıb də.



Başı çıxmayan adam bu şəkildə yazır..."

T.Carçıyev icra başçısı ilə görüşlərdə vətəndaşlar üçün əlverişli şərait yaradılıb-yaradılmaması barədə sualı isə cavabsız qoyaraq "Ümumi şöbəyə bu sualı verin, ətraflı cavablandıracaqlar" deyib.

Xatırladaq ki, 63 yaşlı Rafiq Cəlilov 2021-ci ildən Cəlilabadın icra başçısı vəzifəsindədir.

Onu da deyək ki, Azərbaycanda icra başçıları bir-birindən qəribə fortolarla mütəmadi olaraq gündəmə gəlirlər. "Unikal" sözügedən mövzu ilə bağlı araşdırma hazırlayıb.

Elə Rafiq Cəlilovla davam edək, çünki o, ilk dəfə deyil ki, hər hansı fotosuna görə tənqid olunmur. Məsələ burasındadır ki, icra başçısı 2021-ci ildə Cəlilabad şəhərində fəaliyyət göstərən 8 saylı körpələr evi-uşaq bağçasına ayaqqabı ilə daxil olmuş, bununla bağlı şəkillər yayıldıqdan sonra isə mediada və sosial şəbəkələrdə tənqid hədəfinə çevrilmişdi.

Həmin vaxt KİV yazırdı ki, pandemiya ilə əlaqədar xüsusi karantin rejiminin tələblərinə, bağçalarda təmizlik və dezinfeksiya işlərinin aparılması, tibbi maskadan istifadə, hər gün işçi heyətinin və uşaqların temperaturunun ölçülməsi, sanitar-gigiyena qaydalarına ciddi şəkildə əməl edilməsi, ərzaqların keyfiyyətinə diqqətin artırılmasının vacibliyini qeyd edən icra başçısı bununla bağlı aidiyyəti üzrə tapşırıqlarını verib. Lakin Rafiq Cəlilov verdiyi tapşırıqları elə 8 saylı körpələr evi-uşaq bağçasında özü pozub. Belə ki, icra başçısı müavinləri ilə bağçaya gedib. Onlar ayaqqabı ilə uşaq otaqlarına daxil olub. Hətta uşaqların gəzdiyi xalçanın üzərinə də ayaqqabı ilə çıxıb. Bağçanın müdiri çəkələklə gəzdiyi halda, onlar ayaqqabı ilə mətbəxə də daxil olublar.

İllər əvvəl Gədəbəyin o vaxtkı icra başçısı İbrahim Mustafayevin isə dağ kəndlərindən bəzilərinə qaz verilməsi mərasimində çəmənliyə xalça sərməsi tənqidlə qarşılanmışdı. Mərasimdən sözügedən fotoları görənlər bildirmişdilər ki, prinsipcə füsunkar mənzərəli dağ kəndində təbiət özü hər yerə "xalça serib", lakin icra başçısı ya onunla kifayətlənmək istəməyib, ya da təbii gözəlliklərin fərqində olmayıb.

Salyanın sabiq icra başçısı Tahir Kərimovun isə bir vaxtlar məktəblilərin tutduğu qızılgül çələnginin altından keçdiyi şəkillə gündəmə gəlmiş və sərt tənqid olunmuşdu. Bir çoxları onu özünü krallara oxşatdığına görə qınamış, bəziləri isə Şimali Koreya diktator rəhbəri ilə müqayisə etməkdən çəkinməmişdi.

Təzəlikcə isə Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovun rayonda yerləşən bank filiallarından birinin yeni təyin olunan müdirini qəbul etdiyinə dair yayılan foto sosial şəbəkədə tənqid atəşinə tutulmuşdu. İcra hakimiyyətinin facebook səhifəsindən yayımlanan fotoya şərh yazanlar bu paylaşımın informasiya əhəmiyyətinin olmadığını bildirmişdilər.

Ötən ilin sonlarında isə Xətai rayon İcra Hakimiyyətinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təşkil etdiyi tədbir sosial şəbəkələrdə müzakirələrə səbəb olmuşdu. Müzakirələrə səbəb isə Xalq artisti Röya Ayxanın İcra Hakimiyyətinin tədbirinə idman geyimində gəlməsi və icra başçısı ilə görüşməsi idi. Xüsusilə Xətai rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quliyevin müğənnini şəxsən qarşılaması və onunla şəkil çəkdirməsi ciddi şəkildə qınanılmışdı. İcra başcısının sənətçini öz müavinləri ilə müşayiət etməsi də tənqid olunmuşdu. Qeyd edilmişdi ki, bəzən günlərlə İcra Hakimiyyətinin qapısında qəbul növbəsi gözləyən vətəndaşlar varkən, icra başçısının şou nümayəndəsilə rəsmi protokol qaydalarına uyğun şəkildə davranışı anlaşılmazdır.

2025-ci ilin yanvarında Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasovun Piran və Zərigüməco kəndlərində yerli sakinlərlə görüşündən yayılan fotolar da tənqidlə qarşılanmışdı. Belə ki, ki, fotolarda həmin görüş zalında sakinlərin oturduğu hissədə deyil, yalnız Ə.Abbasovun oturduğu masanın yanında iki istilik sobasının qoyulması diqqət çəkmişdi.

İcra başçısının keçirdiyi görüş zalında istilik olmaması və buna görə oturduğu masanın arxasına elektrik qızdırıcılarının qoyulması müzakirələr doğurmuşdu.

Ümumiyyətlə isə əksər icra başçılarının müxtəlif toplantılarda, mərasimlərdə, qəbullarda özlərini xalqdan ayırmasına mütəmadi rast gəlinir və bu da cəmiyyətdə haqlı narazılıq, qınaq yaradır.

***Sənan Mirzə***




# Bakının Baş planı: sakinləri hansı yeniliklər gözləyir?

***Azərbaycanın WUF13-ə ev sahibliyi etməsi ölkənin dayanıqlı şəhər transformasiyası, beynəlxalq əməkdaşlıq və innovativ şəhərsalma yanaşmalarına sadiqliyinin göstəricisidir.***

"Unikal" xəbər verir ki, bu fikirləri Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində keçirilən Bakı şəhərinin Baş Planına həsr olunmuş tədbirdə Bakı Şəhəri Baş Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəisi Riad Qasımov bildirib.

O qeyd edib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə şəhərsalma və memarlıq milli inkişaf gündəliyinin əsas prioritetlərindən birinə çevrilib.

"Bu yanaşma 2026-cı ilin "Şəhərsalma və Memarlıq ili" elan olunması ilə daha da gücləndirilib".

R.Qasımovun sözlərinə görə, BMT-nin proqnozlarına əsasən, 2050-ci ilə qədər dünya əhalisinin təxminən 70 faizi şəhərlərdə yaşayacaq: "Bu səbəbdən torpaq istifadəsi, infrastruktur, nəqliyyat, ictimai məkanlar və ekoloji idarəetmə ilə bağlı bu gün qəbul edilən qərarlar gələcək nəsillərin həyatına birbaşa təsir göstərəcək".

O bildirib ki, müasir şəhərsalma artıq yalnız ənənəvi zonalaşdırma və tikinti siyasəti ilə məhdudlaşa bilməz: "Şəhərsalma insan mərkəzli, iqlimə həssas və məlumat əsaslı kompleks idarəetmə prosesinə çevrilməlidir".

R.Qasımov qeyd edib ki, Bakı Baş Planı 2040 məhz bu yanaşma əsasında hazırlanıb və paytaxtın uzunmüddətli strateji inkişaf çərçivəsini müəyyənləşdirir: "Baş plan Bakını sadəcə böyüyən metropol deyil, daha yaşıl, inklüziv, dayanıqlı və rəqabətqabiliyyətli qlobal şəhər kimi formalaşdırmağı hədəfləyir. Planın əsas prioritetlərindən biri şəhər sakinlərinin həyat keyfiyyətinin yüksəldilməsidir. Bu çərçivədə parkların, piyadalar üçün əlverişli məkanların, sosial infrastrukturun və ictimai xidmətlərin inkişafına xüsusi diqqət ayrılır. Bundan əlavə, Baş plan çərçivəsində Mərkəzi Parkın genişləndirilməsi, yeni sahilyanı ərazilərin yaradılması, şəhər bulvarı və istirahət zonalarının inkişafı, məhəllə infrastrukturunun yenilənməsi kimi layihələr daha rahat və yaşana bilən şəhər mühitinin formalaşdırılmasına xidmət edir".

R.Qasımov onu da əlavə edib ki, Bakı kimi sahilyanı şəhərlər ciddi ekoloji və iqlim çağırışları ilə üzləşir. Bu baxımdan baş plan yaşıl şəhərsalma, enerji səmərəliliyi, ekoloji bərpa və dayanıqlı mobillik prinsiplərini özündə birləşdirir.

Onun sözlərinə görə, yaşıl zonaların artırılması, hava keyfiyyətinin yaxşılaşdırılması, bərpa olunan enerji həllərinin təşviqi və şəhər ekologiyasının gücləndirilməsi əsas istiqamətlərdəndir: "Azərbaycan Beynəlxalq Maliyyə Korporasiyası kimi beynəlxalq tərəfdaşlarla birlikdə milli yaşıl bina proqramlarının hazırlanması istiqamətində də irəliləyir".

R.Qasımov nəqliyyat məsələsinin də baş planın əsas istiqamətlərindən biri olduğunu qeyd edib: "Baş plan ictimai nəqliyyatın inkişafı, multimodal əlaqələrin gücləndirilməsi, tıxacların azaldılması və yaşayış, kommersiya, istirahət zonaları arasında inteqrasiyanın artırılmasını prioritet hesab edir. Məqsəd yalnız hərəkəti asanlaşdırmaq deyil, insanların daha az vaxtını yolda keçirdiyi balanslı şəhər modeli yaratmaqdır".

O həmçinin vurğulayıb ki, Bakının zəngin tarixi-mədəni irsinin qorunması da əsas prioritetlərdəndir: "Şəhərin modernləşdirilməsi ilə yanaşı, onun memarlıq kimliyinin və tarixi irsinin qorunması fundamental məsuliyyət olaraq qalır".

19_27 IYUl-QARA.qxd 5/21/2026 7:59 PM Page 11



# 2026-cı ilin 3 ayında Ağdaşın iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri

***2026-cı ilin yanvar-mart aylarında rayonda iqtisadiyyatın əsas sahələri üzrə ümumi məhsul buraxılışı əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 2,8 faiz artaraq 81733,2 min manat olmuşdur.***

Ümumi məhsul buraxılışının 36,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 32,0 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 27,9 faizi sənaye, 2,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,5 faizi tikinti, 0,1 faizi isə informasiya və rabitə sahəsində yaranmışdır. Bu dövrdə ümumi məhsul buraxılışı müqayisəli qiymətlərlə əvvəlki ilin müvafiq dövrünə nisbətən tikinti sahəsində 80,0 faiz, sənaye sahəsində 8,4 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 0,6 faiz, nəqliyyat və anbar təsərrüfatı sahəsində 0,4 faiz artmış, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində 1,2 faiz, informasiya və rabitə sahəsində isə 23,6 faiz azalmışdır. Məhsul və xidmətlərin 65,8 faizi istehsal sahələrinin, 34,2 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

***Ağdaş Rayon Statistika İdarəsi***

# ETX əməkdaşı MİSP-də boşluq aşkarladı

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin (ETX) Kibertəhlükəsizliyin idarə edilməsi sektorunun əməkdaşı Əli Qəniyev açıq mənbə resursları bazasında yaradılmış MİSP (Malware Information Sharing Platform) platformasının yeni versiyasında təhlükəsizlik boşluğu müəyyən edib.***

”Unikal” xəbər verir ki, aşkarlanmış çatışmazlıq barədə operativ şəkildə aidiyyəti üzrə platformaya müraciət edilib. Təqdim edilən texniki tapıntı resurs sahibi tərəfindən yüksək qiymətləndirilib və qısa müddətdə müvafiq təhlükəsizlik yenilənməsi həyata keçirilərək boşluq aradan qaldırılıb.

ETX əməkdaşının aşkarladığı təhlükəsizlik boşluğu və onun aradan qaldırılması ilə bağlı məlumatlar artıq bir sıra beynəlxalq resurslarda işıqlandırılıb və bu fakt azərbaycanlı kibertəhlükəsizlik mütəxəssislərinin qlobal kibertəhlükəsizlik ekosistemində peşəkar bacarıqlarının göstəricisi kimi dəyərləndirilib.

Qeyd edək ki, MISP kibertəhlükələrə dair məlumatların paylaşılması, saxlanılması və təhlili üçün beynəlxalq səviyyədə geniş istifadə olunan açıq mənbəli platformadır. Sistemdən müxtəlif ölkələrin dövlət qurumları, CERT komandaları və kibertəhlükəsizlik üzrə mütəxəssislər istifadə edirlər.

# Magistraturaya qəbul olunmaq istəyənlərin nəzərinə!

***14 iyun 2026-cı il tarixində keçiriləcək magistraturaya qəbul imtahanının ikinci cəhdində təkrar iştirak üçün qeydiyyat elan edilir.***

Bu barədə ”Unikal”a DİM-dən məlumat verilib. Bildirilib ki, bakalavrların ərizə qəbulu 23 may saat 23:59-dək internet vasitəsilə aparılır.

İmtahan Bakı, Abşeron və Sumqayıt şəhərlərində keçiriləcək. Bu imtahanda 17 may tarixində keçirilmiş imtahan üçün qeydiyyatdan keçmiş bütün bakalavrlar iştirak edə bilərlər.

17 may tarixli imtahanda iştirak etmək üçün buraxılış vərəqəsini əldə etmiş, lakin əlverişsiz hava şəraiti ilə bağlı Bakı, Abşeron və Sumqayıtda imtahanda iştirak etməmiş bakalavrlar üçün bu imtahan ödənişsizdir. Digər bakalavrlar isə istədikləri təqdirdə müvafiq qaydada ödəniş etməklə imtahanda yenidən iştirak edə bilərlər. Qəbul imtahanında 2 və ya 3 dəfə iştirak etmiş bakalavrlar ixtisaslaşma seçimi zamanı müsabiqə şərtlərini ödəyən ən yüksək nəticələrini seçə bilərlər.

# Azərbaycanda ilk dəfə ikitərəfli sayğaclar bu ərazilərdə tətbiq olunur

***”Biz işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bütün layihələrimizdə ”yaşıl zona” prinsiplərini tətbiq etməyə çalışırıq. Sözsüz ki, burada iqtisadi səmərəlilik ən vacib məsələdir”.***

”Unikal” xəbər verir ki, bunu Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) jurnalistlərə açıqlaması zamanı Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.

“Layihələrin ekoloji tarazlığa riayət olunmaqla yanaşı, insanların büdcəsinə müsbət təsir etməsi bizim üçün ən vacib faktorlardan biridir. Bu baxımdan biz yaşayış binalarının üzərində günəş panellərinin quraşdırılmasını təmin edirik və ikitərəfli sayğaclardan istifadə edirik. Yeri gəlmişkən deyim ki, Azərbaycanda ilk dəfə ikitərəfli sayğaclar məhz işğaldan azad edilmiş ərazilərdə tətbiq olunur”, - deyə xüsusi nümayəndə bildirib.

# Vilyam Hacıyevə lüks avtomobillər şoku

Həbsdəki sabiq icra başçısının bahalı “inomarkalarına” alıcı tapılmır - Belə getsə, su qiymətinə satılacaq

İmişli Rayon İcra Hakimiyyətinin korrupsiya cinayətləri ilə bağlı mühakimə edilmiş keçmiş başçısı Vilyam Hacıyevin cinayət işi üzrə müsadirə olunmuş avtomobillərinin qiyməti xeyli endirilib.

Bu barədə yayılan xəbərdə deyilir ki, ”Range Rover” və ”BMW 740İ” avtomobilləri üç dəfə satışa çıxarılsa da, onlara alıcı tapılmayıb.

İcra məmuru əmlakı 25% endirimlə dördüncü dəfə hərraca çıxaracaq. Belə ki, əvvəl



56 min manata təklif edilən ”Range Rover”in qiyməti 14 min manat ucuzlaşaraq 42 min manata, 23 min manata təklif edilən BMW isə 5 750 manat aşağı - 17 250 manata çıxarılacaq.

V.Hacıyevin cinayəti ilə bağlı müsadirə edilmiş avtomobillərdən yalnız birinə - ”Bentley Continental GT”yə alıcı tapılıb. 65 min manata təklif edilən ”Bentley” üçüncü hərracda 6 500 manat endirimlə - 58 500 manata satılıb (Qafqazinfo).

Qeyd edək ki, ”Range Rover”i (həmin vaxt qiyməti 100 min manatdan çox olub - red.) Vilyam Hacıyevin oğlu Məhəmməd Hacıyev, BMW-ni isə həyat yoldaşı Cülyetta İbrahimova sürüblər.

Xatırladaq ki, İmişlinin sabiq icra başçısı 2020-ci ildə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən əməliyyat zamanı həbs olunub. O, Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə, 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.3 (rüşvət alma (passiv rüşvətxorluq), külli miqdarda törədildikdə) 313-cü (vəzifə saxtakarlığı) və 228-ci (qanunsuz silah saxlama) maddələri ilə təqsirli bilinib.

Vilyam Hacıyev Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 12 il azadlıqdan məhrum edilib.

Hökmdə qeyd edilib ki, təqsirləndirilən şəxsin 6 milyon 300 min manatlıq əmlak və pulu dövlət nəfinə müsadirə olunsun. Hökmə əsasən, sabiq icra başçısının ailə üzvlərinin adına rəsmiləşdirilmiş 5 milyon 344 min manatlıq əmlakı da dövlət nəfinə müsadirə edilib. Sabiq başçının adına rəsmiləşdirilən əmlaklar arasında bahalı avtomobillərlə yanaşı, Bakı şəhərində yerləşən mənzil, Abşeron rayonu, Xırdalan şəhərində yerləşən 4 fərqli mənzil və Sabunçu rayonu, Nardaran qəsəbəsində bağ evi də daxildir.

Bakı Apellyasiya Məhkəməsi hökmü dəyişdirmədən qüvvədə saxlayıb.

Vilyam Hacıyevin ailə üzvləri - həyat yoldaşı Cülyetta İbrahimova və oğlu Məhəmməd Hacıyev üç il öncə kassasiya şikayəti verərək, müsadirə olunmuş əmlaklarının geri qaytarılmasını istəyiblər. Onlar həmin əmlakların cinayət yolu ilə əldə olunmadığını iddia ediblər.

Ali Məhkəməyə daxil olan şikayətdə Cülyetta İbrahimova 5 milyon 218 min manatlıq mənzilləri və 2 minik avtomobilinin, Məhəmməd Hacıyev isə 126 000 manatlıq ”Land Rover” markalı avtomobilin müsadirədən azad olunmasını istəyib.

Lakin Vilyam Hacıyevin ailə üzvlərinin bu tələbi təmin olunmayıb.

Yeri gəlmişkən, həbsdəki sabiq icra başçısının həyat yoldaşının adına olan çox sayda əmlak da müsadirə olunub. Onlar aşağıdakılardır:

Bakı şəhəri, Nərimanov rayonu, Teymur Əliyev küçəsində (“milyonçular məhəlləsi”) yerləşən fərdi ev - 1 milyon 850 min manat;

Bakı şəhəri, Nərimanov rayonu, Sabit Rəhman küçəsində yerləşən mənzil - 275 min manat;

Xırdalan şəhərində yerləşən mənzil - 67 min manat;

Xırdalan şəhəri, 28-ci məhəllədə yerləşən mənzil - 86 min manat;

Xırdalan şəhəri, 28-ci məhəllədə yerləşən mənzil - 74 min manat;

Xırdalan şəhəri, 28-ci məhəllədə yerləşən mənzil - 65 min manat;

Nardaranda - Ləhiş bağları ərazisində bağ evi - 2 milyon 626 min manat;

“BMW X5” markalı avtomobil - 22 min manat;

“BMW 740-İ” markalı avtomobil - 33 min manat;

“Bentley Continental GT” markalı avtomobil - 118 min manat.

Hazırda 68 yaşı olan Vilyam Hacıyev 2004-2006-cı illərdə Göygöl, 2006-2012-ci illərdə Samux, 2012-2020-ci illərdə isə İmişli rayonunun icra başçısı vəzifəsində işləyib. O, 2020-ci ilin mayında Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən saxlanılarkən evində və iş otağında aparılan axtarış zamanı 1 milyondan çox avro, funt-sterlinq və başqa əskinaslarda vəsait tapılıb.

Vəzifədə olduğu müddətdə isə V.Hacıyev mediada ən çox tənqid olunan, adı müxtəlif rüşvət və korrupsiya faktlarında hallanan icra başçılarından idi. Ona görə də həbsinin ardınca nəhəng varidatının ortaya çıxması kimsəni təəccübləndirmədi.

***Sənan Mirzə***

**5.3.6. Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# WUF13- Azərbaycanın beynəlxalq nüfuzunu artıran qlobal platforma!

***Bakıda BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) və Azərbaycan hökumətinin birgə təşkilatçılığı ilə keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) beşinci günü baş tutub.***

Forumun proqramı mənzil siyasəti, şəhərlərin böhranlardan sonrakı bərpası, maliyyələşdirmə mexanizmləri, urbanizasiya, gənclərin şəhər inkişafında iştirakı, dayanıqlı turizm və vətəndaş cəmiyyətinin rolu kimi mövzulara həsr olunub. Beşinci gün çərçivəsində "Böhranların bərpası və yenidənqurulmasının mərkəzində mənzil", "Mənzil maliyyələşdirilməsi üçün yeni razılaşma", "Akademiya", "Uşaqlar və gənclər", "Kiçik ada inkişaf etməkdə olan dövlətlərdə inklüziv şəhər dayanıqlılığı, mavi iqtisadiyyat və dayanıqlı turizm", "Afrika Əlçatan Mənzil Kompaktı - İnvestorlar üçün xüsusi sessiya", "Peşəkarlar", "Vətəndaş cəmiyyəti" və yekun sessiya üzrə dialoqlar, dəyirmi masalar və xüsusi sessiyalar keçiriləcək. Sessiyalarda mənzilə çıxış imkanlarının genişləndirilməsi, şəhərlərin böhran və münaqişələrdən sonra bərpası, dayanıqlı maliyyə alətlərinin tətbiqi, gənclərin qərar qəbuletmə proseslərinə cəlb olunması, həmçinin iqlim dəyişikliyi şəraitində şəhərlərin dayanıqlığının artırılması məsələləri müzakirə ediləcək.

Müasir dövrdə dövlətlərin inkişaf səviyyəsi onların beynəlxalq əməkdaşlıq imkanları, dünya birliyinə inteqrasiyası və qlobal təşəbbüslərdə fəal iştirakı ilə ölçülür. Azərbaycan dövləti də müstəqillik qazandıqdan sonra beynəlxalq münasibətlər sistemində öz mövqeyini möhkəmləndirmək, region ölkələri və beynəlxalq təşkilatlarla əlaqələri genişləndirmək istiqamətində mühüm addımlar atır. Bu günlərdə rəsmi Bakı daha bir mötəbər və beynəlxalq tədbirə ev sahibliyi edir. İştirakçı sayına görə dünyada COP-dan sonra ikinci ən böyük platforma hesab olunan 13-cü Ümumdünya Şəhərsalma Forumu (WUF13) beynəlxalq tədbir kimi xüsusi əhəmiyyət daşıyır.

Qeyd edək ki, WUF13 BMT-nin İnsan Məskənləri Proqramı (UN-Habitat) çərçivəsində keçirilən beynəlxalq forumdur. Azərbaycanın belə tədbirlərdə iştirakı ölkənin beynəlxalq təşkilatlarla əlaqələrinin möhkəmlənməsinə və dünya birliyinə inteqrasiyasına xidmət edir.

Forum müxtəlif dövlətləri, şəhərləri və təşkilatları bir araya gətirir. Azərbaycan burada iştirak etməklə digər ölkələrin şəhərsalma, infrastruktur, ekologiya və "ağıllı şəhər" layihələri üzrə təcrübəsini öyrənə və öz nailiyyətlərini təqdim edə bilir.




WUF13 kimi beynəlxalq tədbirlər region ölkələri ilə əməkdaşlığın genişlənməsinə şərait yaradır. Bu cür forumlarda iqtisadi, sosial və urbanizasiya sahəsində yeni tərəfdaşlıqlar qurulur.

Belə forumlarda iştirak və ya ev sahibliyi etmək Azərbaycanın beynəlxalq arenada fəal dövlət kimi tanınmasına, diplomatik və iqtisadi əlaqələrinin güclənməsinə səbəb olur.

Azərbaycan postmünaqişə dövründə həyata keçirdiyi bərpa və yenidənqurma layihələrini beynəlxalq ictimaiyyətə təqdim etməklə xarici təşkilatların və investorların diqqətini cəlb edə bilər. Bu da beynəlxalq əməkdaşlığın inkişafına töhfə verir. Forumun iqtisadi əhəmiyyəti də böyükdür. Belə tədbirlər xarici investorların diqqətini ölkəyə cəlb edir, yeni investisiya imkanları yaradır və iqtisadi əlaqələrin inkişafına səbəb olur. Eyni zamanda, Azərbaycan beynəlxalq təcrübədən yararlanaraq şəhərsalma və infrastruktur sahəsində daha müasir yanaşmaları tətbiq edir.

Nəticə olaraq, WUF13 Azərbaycanın beynəlxalq inteqrasiyasını sürətləndirən, dövlətlər və beynəlxalq təşkilatlarla əlaqələrini gücləndirən mühüm qlobal əməkdaşlıq platforması kimi qiymətləndirilə bilər.

Millət vəkili Vüqar Bayramov "Unikal qəzeti"nə müsahibəsində WUF13-ün Azərbaycanda keçirilməsini beynəlxalq miqyasda kifayət qədər ciddi və yaddaqalan hadisə kimi qiymətləndirib. O, bildirib ki, Ümumdünya Urban Forumu iştirakçı səviyyəsinə görə dünyada ikinci ən böyük tədbir hesab olunur: "Azərbaycana WUF13 çərçivəsində ümumilikdə 35 min xarici qonaq gəlib. Bu rəqəm forumun iştirakçılıq baxımından nə dərəcədə genişmiqyaslı və nüfuzlu olduğunu bir daha sübut edir", - deyə millət vəkili vurğulayıb.

Deputat deyib ki, tədbirin əsas hissəsi Bakıda keçirilsə də, forum çərçivəsində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirdiyi unikal bərpa-quruculuq layihələri də nümayiş etdirilir: "Qarabağ və Şərqi Zəngəzurda tətbiq edilən yeni şəhərsalma modellərinin WUF13 vasitəsilə beynəlxalq ictimaiyyətə təqdimatı həyata keçirilir ki, bu da ölkəmizin tətbiq etdiyi innovativ həllərin yayılması baxımından vacibdir".

Deputatın fikrincə, 35 minlik nümayəndə heyətinin gəlişi birbaşa olaraq yerli turizm və xidmət sektorunun canlanmasına səbəb olub.

"Həmçinin bu, Azərbaycanın qeyri-neft sektoruna xarici sərmayələrin cəlb edilməsi üçün əvəzolunmaz fürsətdir. WUF13-ün Bakıda keçirilməsi Azərbaycanın qlobal logistika və humanitar mərkəz statusunu daha da möhkəmləndirir. Bu miqyasda bir forumun ölkəmizə gətirəcəyi ən böyük qazanc isə təkcə statistik rəqəmlər deyil, həm də Azərbaycanın "yaşıl enerji" və dayanıqlı şəhərsalma sahəsində atdığı addımların beynəlxalq səviyyədə qəbul edilməsidir", - deyə müsahibimiz vurğulayıb.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Arzu Nağıyev də BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) təşkilatçılığı ilə keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına Azərbaycanın ev sahibliyi etməsini yüksək qiymətləndirir. Deputat deyir ki, forum çərçivəsində dayanıqlı şəhərsalma, iqlim dəyişikliyi ilə mübarizə, inklüziv inkişaf, sosial bərabərlik, rəqəmsal transformasiya və yaşıl iqtisadiyyat kimi aktual mövzular ətrafında geniş müzakirələr aparılır. Bu da region ölkələri üçün qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi, innovativ yanaşmaların tətbiqi və yeni tərəfdaşlıqların qurulması baxımından mühüm platforma rolunu oynayacaq.

Arzu Nağıyev WUF13-ün Bakıda təşkilinin Azərbaycanın son illərdə həyata keçirdiyi genişmiqyaslı infrastruktur layihələrinin, şəhərsalma və məkan planlaşdırılması sahəsində aparılan islahatların beynəlxalq ictimaiyyətə təqdimatı üçün də əlverişli imkan yaratdığını vurğulayıb. Deputat bildirib ki, postmünaqişə dövründə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi, alternativ və bərpaolunan enerji mənbələrinin inteqrasiyası forum iştirakçılarının diqqət mərkəzində olacaq.

Forumun regionda keçirilməsinin Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri arasında şəhərsalma və dayanıqlı inkişaf sahəsində əməkdaşlığın dərinləşməsinə təkan verəcəyini söyləyən müsahibimiz bu çərçivədə şəhər idarəçiliyi, nəqliyyat sistemlərinin optimallaşdırılması, ekoloji tarazlığın qorunması və sosial infrastrukturun inkişafı istiqamətində ortaq layihələrin təşviqinin mümkün olduğunu bildirib.

O, əlavə edib ki, WUF13-ün regionun investisiya mühitinin təşviqi baxımından əhəmiyyətli rolu var.

***Gülayə Məcid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Mənzil problemi ciddi siyasi məna daşıyır - WUF13-də çıxış

***Mənzil məsələsinin böhranlara cavab prosesində ikinci plana keçməsinin əsas səbəbi siyasi amillərlə bağlıdır.***

"Unikal" xəbər verir ki, bunu Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində Qətər Fondunun Həməd bin Xəlifə Universitetində Dövlət Siyasəti üzrə professor və York Universitetinin fəxri professoru Sultan Barakat "Böhran sonrası bərpa və yenidənqurmanın mərkəzində mənzil məsələsi" adlı panel sessiyada çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, müvəqqəti sığınacaqdan fərqli olaraq mənzil məsələsi ciddi siyasi məna daşıyır: "Münaqişələr əksər hallarda ərazi, insanların məcburi köçürülməsi və müəyyən icmaların yerindən çıxarılması ilə bağlı olur. Buna görə də mənzil məsələsinin siyasi tərəfi olduqca böyükdür".

Professor qeyd edib ki, mənzilin bərpa prosesində mərkəzi rol oynaması yeni fikir deyil: "Təxminən 25 il əvvəl bu mövzuda hazırladığım araşdırma bu gün də aktuallığını qoruyur. Hamımız anlayırıq ki, mənzil həm bərpanın, həm də iqtisadiyyatın əsas elementlərindən biridir".

O həmçinin vurğulayıb ki, mənzil siyasəti hər ölkənin və hər böhranın spesifik şəraitinə uyğun qurulmalıdır: "Hər kontekstdə mənzilə yanaşma fərqli olacaq. Əgər ortada sülh sazişi, siyasi sabitlik və hökumətin iradəsi varsa, proses daha asan idarə olunur. Amma münaqişə davam edirsə və ya etnik təmizləmə kimi məqsədlər mövcuddursa, bu məsələ olduqca həssas xarakter alır".

Sultan Barakat beynəlxalq təşkilatların çox vaxt humanitar yanaşmaya üstünlük verdiyini bildirib: "Humanitar yanaşma insan həyatını xilas etməyə imkan verir və siyasi nəticələrə görə məsuliyyət daşımamaq üçün daha təhlükəsiz model hesab olunur".

Professorun fikrincə, bu yanaşma məcburi köçkünlərin təşəbbüskarlığını zəiflədir: "İnsanların öz gələcəyini qurmaq iradəsini və təşkilatlanma qabiliyyətini qorumaq lazımdır. Mövcud humanitar sistem əsasən həyat xilas etməyə fokuslanır, insanların motivasiyasını və gələcəyə inamını qorumağa isə daha az diqqət yetirilir".

O qeyd edib ki, məcburi köçkün ailələri ilk günlərdən etibarən yenidənqurma barədə düşünməyə başlayırlar: "İnsanlar müəyyən sabitlik əldə edən kimi gələcək barədə düşünürlər. Biz onların yenidənqurma istəyilə planlaşdırma prosesləri arasında boşluq yaranmasına imkan verməməliyik".

19_27 IYUl-QARA.qxd 5/21/2026 7:59 PM Page 13



# II və III qruplar üzrə qəbul imtahanı keçiriləcək



***Dövlət İmtahan Mərkəzi tərəfindən mayın 24-də II və III ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçiriləcək.***

DİM-dən "Unikal"a verilən məlumata görə, imtahanlar Bakı, Xankəndi, Naxçıvan, Gəncə, Şəmkir, Ağstafa, Qazax, Sumqayıt, Abşeron, Şamaxı, Mingəçevir, Şəki, Zaqatala, Bərdə, Göyçay, Ucar, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Cəlilabad, Masallı, Quba və Xaçmazda təşkil olunacaq.

İştirakçılar mayın 15-dən etibarən Dövlət İmtahan Mərkəzinin saytından "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilirlər.

"İmtahana buraxılış vərəqəsi"ndə imtahanın keçiriləcəyi tarix, şəhər (rayon), bina, zal, başlanma və aturiyentin imtahan binasına gəlmə vaxtı və s. məlumatlar qeyd olunub.

Abituriyentlərin bir daha nəzərinə çatdırırıq ki, imtahan saat 10:00-da başlanır.

İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır və bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

Abituriyentlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli.

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 231 imtahan binası, 4206 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 231 ümumi imtahan rəhbəri, 665 imtahan rəhbəri, 5211 nəzarətçi, 762 buraxılış rejimi əməkdaşı, 231 bina nümayəndəsi cəlb olunub.

II ixtisas qrupu üzrə imtahanda 28507, III ixtisas qrupu üzrə imtahanda isə 28340 nəfər olmaqla, ümumilikdə 56847 abituriyentin iştirakı nəzərdə tutulur.

İmtahanda 82 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) abituriyentlər də iştirak edəcəklər. Onların rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli abituriyentlərin bina və zala daxil olması və hərəkəti üçün də şərait yaradılıb. Bundan əlavə, sağlamlıq imkanları məhdud iştirakçılar üçün ayrılan nəzarətçilərlə xüsusi təlim keçirilib.

Hazırda qeyd olunan şəhər və rayonlarda imtahanlarda iştirak edəcək digər nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilir, imtahan zallarında abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılır. Təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə mayın 23-də təkrar baxış keçiriləcək və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə veriləcək.

**ELAN**

**FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən Krapivin Oleq Andreyeviç məxsus AA 11548 (bort nömrəsi ABC-1022) nömrəli gəmi bileti itdiyi üçün etibarsız sayılır.**

# 2026-cı ilin 3 ayında Kəlbəcərin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri belə olub

***Ümumi məhsul buraxılışı. 2026-cı ilin yanvar-mart aylarında iqtisadiyyatın əsas sahələrində ümumi məhsul buraxılışı 55 milyon 460,9 min manat təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 24,1 faiz azalmışdır.***

Ümumi məhsul buraxılışının 4,8 faizi sənaye, 21,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 71,4 faizi tikinti, 0,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,6 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 0,0 faizi isə informasiya və rabitə sahələrinin payına düşmüşdür.

Məhsul buraxılışının həcmi 2025-ci ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə sənaye sahəsində 8,9 faiz, nəqliyyat və anbar təsərrüfatı sahəsində 92,7 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində 12,9 faiz artmış, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 4,1 faiz, tikinti sahəsində isə 30,6 faiz azalmışdır.

2026-cı ilin yanvar-mart aylarında məhsul və xidmətlərin 16 milyon 492,9 min manatı və ya 29,7 faizi iqtisadiyyatın qeyri-dövlət sektoruna aid olmuş və 2025-ci ilin müvafiq dövrünə nisbətən 7,3 faiz artmışdır.

Sənaye. 2026-cı ilin yanvar-mart aylarında sənaye müəssisələri, həmçinin sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən əvvəlki ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə 8,9 faiz çox və ya 2 milyon 636,9 min manatlıq sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Kənd təsərrüfatı. 2026-cı ilin yanvar-mart aylarında kənd təsərrüfatının ümumi məhsulunun dəyəri sabit qiymətlərlə əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,1 faiz az olaraq, 11 milyon 917,9 min manat təşkil etmişdir ki, bunun da 100,0 faizi heyvandarlıq məhsullarının payına düşür.

2026-ci ilin yanvar-mart aylarında quş əti də daxil olmaqla diri çəkidə 759,0 ton ət, 5781,0 ton süd və 985,0 min ədəd yumurta istehsal olunmuşdur.

2025-ci ilin müvafiq dövrünə nisbətən ət istehsalı 4,6 faiz, süd istehsalı 3,3 faiz, yumurta istehsalı isə 6,7 faiz azalmışdır.

Tikinti. 2026-cı ilin yanvar-mart aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 41 milyon 870,0 min manat məbləğində vəsait yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 94,6 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Keçən ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə əsas kapitala yönəldilmiş investisiyanın həcmi 26,9 faiz, tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin həcmi isə 30,6 faiz azalmışdır.

Nəqliyyat. 2026-cı ilin yanvar-mart aylarında nəqliyyat sektorunda sərnişin daşınmasından əldə olunan gəlir 128,6 min manat, yük daşınmasında isə 18,1 min manat təşkil etmişdir. Əvvəlki ilin müvafiq dövrünə nisbətən sərnişin daşınmasından əldə olunan gəlir 3,0 faiz, yük daşınmasında isə 2,8 faiz çox olmuşdur.

Ümumilikdə, 2026-cı ilin yanvar-mart aylarında nəqliyyat və anbar təsərrüfatı sahəsində ümumi məhsul buraxılışının dəyəri sabit qiymətlərlə, əvvəlki ilin müvafiq dövrünə nisbətən 92,7 faiz artaraq 376,8 min manat təşkil etmişdir.

İnformasiya və rabitə. 2026-cı ilin yanvar-mart aylarında informasiya və rabitə müəssisələri tərəfindən faktiki qiymətlərlə 0,9 min manatlıq xidmət göstərilmişdir.

Pərakəndə ticarət. 2026-cı ilin yanvar-mart aylarında pərakəndə ticarətin dövriyyəsi 2 milyon 784,9 min manat və ya 2025-ci ilin müvafiq dövrünə



nisbətən 112,9 faiz təşkil etmişdir.

Topdansatış ticarət. 2026-cı ilin yanvar-mart aylarında topdansatış ticarətin dövriyyəsi 7 milyon 554,9 min manat və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 105,1 faiz təşkil etmişdir.

Yeni iş yerləri. 2026-cı ilin yanvar-mart aylarında rayon üzrə 42 yeni daimi iş yerləri açılmışdır ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 40,0 faiz az olmuşdur. Açılmış iş yerlərinin 16-sı yeni yaradılmış müəssisə və təşkilatlarda, 26-sı isə mövcud müəssisə və təşkilatlarda yaradılmışdır.

Açılmış iş yerlərinin 8-i və ya 19,0 faizi dövlət mülkiyyətində olan müəssisələrdə, 34-ü və ya 81,0 faizi isə qeyri-dövlət mülkiyyətində olan müəssisələrdə yaradılmışdır.

2026-cı ilin yanvar-mart aylarında 120 yeni fərdi sahibkarlıq subyektləri yaradılmışdır ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 21,2 faiz çox olmuşdur.

Əmək bazarı. 2026-cı il 01 mart vəziyyətinə rayonun iqtisadi və sosial sahələrində muzdla çalışan işçilərin sayı 5498 nəfər təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,6 faiz az olmuşdur. Dövlət mülkiyyətində olan müəssisələrdə çalışan işçilərin sayı 5175 nəfər, qeyri-dövlət mülkiyyətində olan müəssisələrdə çalışan işçilərin sayı isə 323 nəfər olmuşdur.

2026-cı il 01 mart vəziyyətinə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2025-ci ilin müvafiq dövrünə nisbətən 0,4 faiz artaraq 723,9 manat təşkil etmişdir.

Əhali. İlkin hesablamalara əsasən 01 aprel 2026-cı il tarixinə rayon üzrə əhalinin sayı 72,8 min nəfər olmuşdur.

***Kəlbəcər Rayon Statistika İdarəsi***

19_27 IYUl-QARA.qxd 5/21/2026 7:59 PM Page 14



# 2026-cı ildə Laçın rayonunun iqtisadi və sosial inkişafı statistikası belə olub

***Ümumi məhsul buraxılışı. 2026-cı ilin yanvar-mart aylarında ümumi məhsul buraxılışının (ÜMB) həcmi 43807,6 min manat olmuş və 2025-ci ilin eyni dövrü üzrə məhsul buraxılışının 30,4 faizini təşkil etmişdir. ÜMB istehsalının 34,1 faizi sənaye, 28,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 34,2 faizi tikinti, 2,9 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 0,3 faizi isə nəqliyyat və anbar təsərrüfatının payına düşmüşdür***

Sənaye. 2026-cı ilin yanvar-mart aylarında sənaye müəssisələri tərəfindən 14938,7 min manatlıq sənaye məhsulu istehsal edilmiş və sənaye xidmətləri göstərilmişdir. Cari ilin yanvar-mart aylarında istehsal edilmiş sənaye məhsulunun və göstərilmiş sənaye xidmətlərinin həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 30,4 faiz çox olmuşdur.



Tikinti: 2026-cı ilin yanvar-mart aylarında rayonun iqtisadi və sosial sahələrinin inkişafı, infrastrukturun qurulması və digər məqsədlər üçün bütün maliyyə mənbələrindən əsas kapitala 15459,4 min manat, o cümlədən tikinti-quraşdırma işlərinə 14978,1 min manat vəsait yönəldilmişdir. Cari ilin yanvar-mart aylarında əsas kapitala sərf olunmuş vəsaitin məbləği əvvəlki ilin eyni dövrünün yalnız 12,5 faizini təşkil etmişdir. Bundan başqa yanvar-mart aylarında tikinti müəssisələrinin (hüquqi şəxslər) öz gücləri ilə yerinə yetirdikləri tikinti işlərinin dəyəri isə 2598,7 min manat təşkil etmişdir. Cari dövrdə olan tikinti işlərinin dəyəri əvvəlki ilin eyni dövrünün tikinti işlərini 27,2 faiz üstələmişdir.

Kənd təsərrüfatı. 2026-cı ilin yanvar-mart aylarında kənd təsərrüfatı sahəsində 12492,4 min manatlıq məhsul buraxılışı olmuşdur. Kənd təsərrüfatı üzrə məhsul buraxılışı 2025-ci ilin eyni dövrü ilə müqayisədə 0,1 faiz azalmışdır.

2026-cı ilin aprel ayının 1-i vəziyyətinə kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsi 1616,5 hektar olmuşdur. Kənd təsərrüfatı bitkiləri əkinlərinin 95,4 faizi arpa, 4,6 faizi isə yem bitkisi (yonca) olmuşdur. Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 2025-ci ilin eyni dövrü ilə müqayisədə 22,1 faiz azalmışdır.

2026-cı ilin yanvar-mart aylarında diri çəkidə 836,0 ton ət, 5629,0 ton süd və 1374,0 min ədəd yumurta istehsal edilmişdir. 2025-ci ilin eyni dövrü ilə müqayisədə ət istehsalı 1,5 faiz azalmışdır, süd istehsalı 1,1 faiz, yumurta istehsalı isə 17,0 faiz artmışdır.

2026-cı il aprel ayının 1-i vəziyyətinə bütün təsərrüfat kateqoriyalarında 41032 baş iri buynuzlu mal-qara, o cümlədən 18881 baş inək və camış, 156145 baş qoyun və keçi mövcud olmuşdur. 2025-ci ilin eyni dövrü ilə müqayisədə iri buynuzlu mal-qaranın sayı 1,1 faiz, o cümlədən inək və camışların sayı 1,1 faiz, qoyun və keçilərin sayı isə 4,6 faiz azalmışdır.

Nəqliyyat. 2026-cı ilin yanvar-mart aylarında nəqliyyat sektorunda məhsul buraxılışının həcmi 138,2 min manat olmuşdur. 2025-ci ilin birinci rübü ilə müqayisədə nəqliyyat sektorunda məhsul buraxılışının həcmi 1,7 faiz azalmışdır. Bu dövrdə avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən subyektlər (fiziki şəxslər) tərəfindən 93,0 min ton yük və 691,0 min sərnişin daşınmışdır. Əvvəlki ilin eyni dövrünə nisbətən yüklərin daşınması 3,3 faiz, sərnişin daşınması isə 4,1 faiz artmışdır.

İstehlak bazarı. 2026-cı ilin yanvar-mart aylarında istehlakçıların tələbatının ödənilməsi məqsədilə təsərrüfat subyektləri tərəfindən 4259,7 min manatlıq mal (məhsul) satılmış və xidmətlər göstərilmişdir. Cari ilin yanvar-mart aylarında istehlak bazarında satılmış malların (məhsulların) və göstərilmiş xidmətlərin ümumi dəyəri 2025-ci ilin yanvar-mart ayları ilə müqayisədə 6,0 faiz çox olmuşdur.

Muzdla işləyənlərin sayı və orta aylıq əməkhaqqı. 2026-cı ilin yanvar-fevral aylarında muzdla işləyənlərin orta sayı 6614 nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 5697 nəfər, qeyri-dövlət sektorunda isə 917 nəfər olmuşdur. Muzdla işləyənlərin 16,2 faizi məhsul istehsalı sahələrində, 83,8 faizi isə xidmət sahələrində çalışmışlar. 2026-cı ilin yanvar-fevral aylarında muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 791,4 manat, o cümlədən dövlət sektorunda 795,6 manat, qeyri-dövlət sektorunda isə 765,2 manat təşkil etmişdir. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə orta aylıq nominal əməkhaqqının məbləği 11,7 faiz artmışdır.

Yeni iş yerlərinin açılması. Cari ilin yanvar-mart aylarında iqtisadiyyatın müxtəlif sahələrində 65 yeni iş yeri açılmışdır. Yeni iş yerlərinin 25-i yeni yaradılmış müəssisə və təşkilatlarda, 40-ı isə mövcud müəssisə və təşkilatlarda olmuşdur. Bundan başqa bu dövrdə 82 yeni fərdi sahibkarlıq subyekti də yaradılmışdır.

Demoqrafik vəziyyət. İlkin hesablamalara əsasən 2026-cı il aprel ayının 1-i vəziyyətinə rayon əhalisinin sayı 76,7 min nəfər olmuşdur. Cari ilin yanvar-mart aylarında 127 təbii artım, 228 doğum, 101 ölüm, 117 nikah və 33 boşanma halı olmuşdur.

***Laçın rayon Statistika İdarəsi***



# "Azərişıq" ASC-nin nümayəndələri Naxçıvanda sahibkarlarla görüşüb

***Cənab Prezident İlham Əliyevin tapşırıqlarına əsasən "Azərişıq" ASC fermer, sahibkar və vətəndaşların rahat fəaliyyəti, yaranan çətinliklərin aradan qaldırılması məqsədilə Naxçıvanda görüş təşkil edib. Ordubad Elektrik Şəbəkəsinin (EŞ) binasında keçirilən görüşə 30-dək sahibkar və yerli sakin qatılıb.***

"Unikal" xəbər verir ki, tədbirdə "Azərişıq" ASC-nin ASAN Xidmətlə İş Departamentinin direktoru İnam Yusifov, Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Vaqif Mustafayev, Naxçıvan Regional Enerji Təchizatı və Satışı İdarəsinin (RETSİ) rəisi Nərman Mahmudov, Ordubad Rayon İcra Hakimiyyətinin başçısının müavini Rəşadət Orucov iştirak edib.

Görüş zamanı fermer, sahibkar və vətəndaşlara Cənab Prezident İlham Əliyevin tapşırıqlarına əsasən "Azərişıq" ASC-nin regionlarda həyata keçirdiyi yenidənqurma və əsaslı təmir işləri barədə məlumat verilib. Bildirilib ki, ölkənin bütün regionlarında yeni güc mərkəzləri, müasir yarımstansiyalar tikilir, ən müasir standartlara cavab verən transformator məntəqələri qurulur, yeni dayaqlar basdırılır, Özünüdaşıyan İzolyasiyalı Naqillərdən (ÖİN) istifadə edilərək yeraltı və yerüstü xətlər çəkilir.

Həmçinin tədbir iştirakçıları elektron xidmətlər barədə məlumatlandırılıb. Xidmət mərkəzlərində vətəndaşlara göstərilən xidmətlər haqqında maarifləndirici söhbət aparılıb.

Tədbirdə yeni elektrik təchizatı şəbəkəsinə qoşulma prosesi, texniki şərtlərin verilməsi və ödəniş qaydaları izah edilib. Bununla yanaşı vətəndaşların daha çox müraciət etdikləri digər xidmətlər - abonentin balansındakı avadanlıqlara texniki xidmət göstərilməsi, çoxmənzilli binalarda yaşayış mənzillərinin qeydiyyatı, sayğac zədələnməsi hallarında görüləcək tədbirlər, qeyri-əhali abonentlərinin ad dəyişikliyi prosedurları, smart kartın və qüsurlu ödənişlərin bərpası xidmətləri barədə ətraflı məlumatlar verilib, onların sualları cavablandırılıb. Eyni zamanda, həm ASAN Xidmət mərkəzlərində, həm də elektron platformalar üzərindən təqdim edilən bütün xidmətlər barədə geniş məlumat verilib. Vətəndaşların və sahibkarların müraciətlərinin daha asan və sürətli həlli üçün yaradılan imkanlar vurğulanıb. Abonentlərin ofis və evlərindən çıxmadan onlayn qaydada quruma müraciətetmə imkanları ətraflı izah olunub. İştirakçıların müxtəlif məsələlərlə bağlı sualları dinlənilib, qaldırılan bəzi problemlər yerindəcə həll olunub.

"Azərişıq" ASC ölkənin bütün regionlarında maarifləndirici tədbirlər, görüşlər keçirir. Fermer və sahibkarların təklif, tövsiyələri dinlənilir, mövcud problemlərinin həlli istiqamətində işlər aparılır. Görülən bütün işlər abonentlərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunması, elektrik enerjisi itkilərinin minimuma endirilməsinə hədəflənib.

# 13 mindən çox şəxs yaşa görə əmək pensiyasına çıxıb

***Bu ilin yanvar-aprel aylarında Azərbaycanda 13 348 şəxsə proaktiv qaydada yaşa görə əmək pensiyası təyin olunub.***

"Unikal" bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna (DSMF) istinadən xəbər verir.

Məlumata görə, onların 60,5 %-ni kişilər, 39,5 %-ni isə qadınlar təşkil edib.

# Ermənistan AİB-dən çıxır? - Mirzoyan açıqladı



*"Ermənistanın Avrasiya İqtisadi Birliyindən (AİB) çıxması hazırda gündəmdən kənardır və müzakirə edilə bilməz".*

"Unikal" Ermənistan mətbuatına istinadən xəbər verir ki, bunu xarici işlər naziri Ararat Mirzoyan deyib.

"Ermənistanın AİB-dən çıxması məsələsi, Ermənistanın özü belə bir xahiş irəli sürməyincə və belə bir istəyi ifadə etməyincə müzakirə edilə bilməz. Və biz belə bir istəyi ifadə etməmişik. Buna görə də, bizim xaric edilməsi məsələsi müzakirə edilə bilməz. Bu, nizamnamədə nəzərdə tutulmayıb", - Mirzoyan bildirib.

Ermənistan xarici işlər naziri həmçinin qeyd edib ki, ölkəsinin Rusiya ilə münasibətləri gərginləşdirmək planı yoxdur. O, İrəvanın tərəfdaşlığı davam etdirməyə sadiq olduğunu bildirib.

Xatırladaq ki, Avrasiya İqtisadi Birliyi - 29 may 2014-cü ildə Belarus, Qazaxıstan və Rusiya tərəfindən imzalanmış müqavilə ilə qurulan siyasi və iqtisadi təşkilatdır.

# Trampın "məhv edilmiş" düşmənləri

*Ağ Evin rəsmi sosial media hesabında paylaşılan foto diqqət çəkib.*

"Unikal" xəbər verir ki, fotoda Amerika lideri Donald Tramp və onun "məhv etdiyi" şəxslər yer alıb.

Belə ki, sözügedən fotonun başlığına "Amerikanın düşmənləri Prezident Donald Tramp tərəfindən zərərsizləşdirilib", - sözləri yazılıb.

Fotoda həbsdə olan Venesuela Prezidenti Nikolas Maduro, İranın keçmiş ali lideri Əli Xamenei, İŞİD lideri Əbu Bilal əl-Minuqi və Raul Kastronun portretləri yer alıb. Onların hər birinə "həbs edilmiş", "ləğv edilmiş" və "ittiham olunmuş" statusu verilib.

Həmçinin, Ağ Ev paylaşımın altında "Ədalət zəfər çalacaq" sözlərini də əlavə edib.



# Ukrayna əhalisinin yarısından çoxunu itirib

*"Ukrayna artıq əhalisinin yarısından çoxunu itirib".*

"Unikal" xəbər verir ki, bunu Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev deyib. Medvedev xatırladıb ki, 1991-ci ildə Ukrayna əhalisi 51,5 milyon nəfərdən çox idi.

"Ukrayna artıq əhalisinin yarısından çoxunu itirib... Bu gün ən optimist hesablamalara görə, Kiyevin nəzarətində olan ərazilərdə 23 milyondan az insan qalıb", - deyə o, bildirib.



O əlavə edib ki, bəzi analitiklər daha da aşağı rəqəmi - 18 milyon nəfəri göstərirlər.

"Tarixən qısa bir müddət ərzində əhali yarıdan çox azalıb - bu, sadəcə bir böhran deyil, millətin bioloji ölümünün sübutudur", - deyə o vurğulayıb.

# "Əlçatan mənzillərə sərmayələr yatırmalıyıq" - BMT-nin nümayəndəsi

***Bu bizim məsuliyyətimizdir ki, hüquqi öhdəlikləri yerinə yetirək. Bu o deməkdir ki, biz inklüziv, əlçatan mənzillərə sərmayələr yatırmalıyıq. İnklüziv məkanlar yaratmalıyıq ki, bütün gənclər həmin ərazidə inkişaf etsinlər.***

"Unikal" xəbər verir ki, bunu BMT-nin gənclər ofisinin rəhbəri Felipe Pauller Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Uşaqlar və gənclər" adlı dəyirmi masadakı videomüraciətində deyib

Onun sözlərinə görə, yaşanıla bilən şəhərlər o deməkdir ki, onlar sağlam və inklüzivdir: "Orada çoxlu fürsətlər, imkanlar var. Bu şəhərlərdə mobillik çox asandır. Bütün nəqliyyata çıxışlar var. Bugün yaşanıla bilən şəhər dayanıqlı şəhər deməkdir. Bu gün gənclər öz icmalarını qorumaq istəyirlər, onlar yaradıcı formada həllər yaradırlar. Bəs, real güc haradan gəlir? Real güc, əlbəttə ki, qərarlardan, institutlardan gəlir. İstəyirəm ki, sözlərimi siyasətçilərə ünvanlayım. Xahiş edirəm, uşaqlara, gənclərə qulaq asın, onların həllərinə sərmayə yatırın, iştirak etdikləri effektiv institutlar qurun.



Çünki biz onlarla birlikdə şəhərlər yaradacağıq, hansı ki, onlar üçün uyğun infrastruktur olacaq. Biz onlarla etimadı və ortaq gələcəyi qurmalıyıq. Gəlin, birlikdə elə şəhərlər quraq ki, təkcə yaşanıla bilən deyil, eyni zamanda, gənclərə və hamımıza aid olsun".

# Aİ İranın hərbi attaşelərinə qarşı sanksiyaları nəzərdən keçirir

***Avropa İttifaqı blok daxilində bir sıra İran hərbi attaşeləri və diplomatlarına qarşı sanksiyalar tətbiq etməyi, eləcə də onların ölkədən çıxarılmasını nəzərdən keçirir.***

"Unikal" xəbər verir ki, bu barədə "Euractiv" nəşri yazıb. Məqalədə deyilir ki, "dosyedə İranın hərbi attaşeləri və diplomatlarına qarşı sanksiyalar və qovulma tövsiyə olunur".

Qeyd olunur ki, siyahıda İranın Polşadakı hərbi attaşesi Məhəmməd Nağızadə də yer alıb.



# "Ərdoğanla söhbətim yaxşı keçdi" - Tramp

***ABŞ prezidenti Donald Tramp Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla söhbətinin "çox yaxşı keçdiyini" bildirib.***

"Unikal" xəbər verir ki, o, bu barədə Ağ Evdə jurnalistlərə açıqlamasında deyib.

Amerika lideri əlavə edib ki, "Ərdoğanla aramızda çox yaxşı münasibətlər var".

# Çin lideri Şimali Koreyaya gedir

***Çin prezidenti Si Cinpin gələn həftənin əvvəlində Şimali Koreyaya səfər edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə "Yonhap" agentliyi məlumat yayıb.

"Prezident Si Cinpinin tezliklə Şimali Koreyaya səfər edəcəyinə dair kəşfiyyat məlumatları alınıb", - deyə agentlik yazıb.

Qeyd olunur ki, Çin lideri Şimali Koreya ilə ABŞ arasında münasibətlərdə vasitəçilik etməyə çalışa bilər.

# Rusiyanın nüvə təlimləri Qərbə xəbərdarlıqdır

***Rusiya Federasiyasının nüvə qüvvələrinin hərbi təlimləri Qərb dövlətləri üçün əsl xəbərdarlıqdır.***

"Unikal" xəbər verir ki, bu barədə Almaniyanın "Neue Zürcher Zeitung" nəşri yazır.

Jurnalistlər təlimlərin əvvəlkindən daha geniş miqyaslı olduğunu qeyd ediblər.

Nəşrin müəllifləri vurğulayıblar ki, "nüvə silahlarının qarşısının alınmasının nümayişi həm də Rusiyanı qiymətləndirməmək barədə xəbərdarlıq rolunu oynayır".

Daha əvvəl NATO-nun baş katibi Mark Rutte bildirmişdi ki, alyans Rusiyanın keçirdiyi nüvə qüvvələri təlimlərini izləyir.

Xatırladaq ki, mayın 19-dan 21-dək Rusiya qoşunları strateji raket qüvvələri və uzaqmənzilli aviasiyanı əhatə edən təhlükə qarşısında nüvə qüvvələrinin hazırlanması və istifadəsi üzrə təlimlər keçirib.

# "İrəvan eyni anda iki toyda rəqs edə bilməz" - Qaluzin

***"Ermənistanın eyni vaxtda AİB və Aİ-nin üzvü ola bilməz".***

"Unikal" xəbər verir ki, bunu Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin deyib.

"Eyni vaxtda iki ittifaqda olmaq tərifinə görə mümkün deyil. Ermənistan eyni anda iki toyda rəqs edə bilməz", - o, ifadə edib.

Qeyd edək ki, bir müddət əvvəl Rusiya prezidenti Vladimir Putin Ermənistanı Aİ-yə, yoxsa AİB-ə qoşulmaq barədə qərar verməyə çağırmışdı.

Xatırladaq ki, Avrasiya İqtisadi Birliyi - 29 may 2014-cü ildə Belarus, Qazaxıstan və Rusiya tərəfindən imzalanmış müqavilə ilə qurulan siyasi və iqtisadi təşkilatdır.

Səhifəni hazırladı: Gülayə Məcid

# Nəriman qol ötürməsi etdi, komandası yarımfinala yüksəldi

***Azərbaycan millisinin üzvü Nəriman Axundzadə ABŞ-nin "Kolambus Kryu" komandasında məhsuldar ötürmə müəllifi olub.***



"Unikal" xəbər verir ki, 22 yaşlı hücumçu "Nyu-York Siti"yə 1:0 hesabı ilə qalib gəldikləri ABŞ Açıq Kubokunun 1/4 final oyununda assistlə yadda qalıb.

O, 59-cu dəqiqədə qələbə qolunun vurulmasında önəmli rol oynayıb.

Qarşılaşmaya ilk "11-lik"də başlayan N.Axundzadə 64-cü dəqiqədə əvəzlənib.

Xatırladaq ki, "Kolambus Kryu" yarımfinalda "Orlando Siti" ilə üzüzə gələcək. Azərbaycan millisinin üzvünün komandası ilə sözləşməsinin müddəti 2029-cu ilin yayınadək nəzərdə tutulub.

# Mövsümün son turuna hakim təyinatları açıqlandı

***Misli Premyer Liqasında mövsümün sonuncu - XXXIII turuna təyinatlar açıqlanıb.***

"Unikal" AFFA-ya istinadən xəbər verir ki, "Turan Tovuz" - "Sabah" matçı Rauf Cabarova tapşırılıb.

"Araz-Naxçıvan" - "Zirə" görüşündə Əkbər Əhmədov iş başında olacaq.

Misli Premyer Liqası
III dövrə, XXXIII tur

**21 may**

18:30. "Qəbələ" - "Şamaxı"
Hakimlər: Kamranbəy Rəhimov, Cəmil Quliyev, Şirmamed Mamedov, Niyaz Əhmədov.
VAR: Rəvan Həmzəzadə.
AVAR: Vüsal Məmmədov.
Hakim-inspektor: Ramil Diniyev.
Qəbələ şəhər stadionu

**22 may**

17:00. "Turan Tovuz" - "Sabah"
Hakimlər: Rauf Cabarov, Rəhman İmami, Orxan İbişov, Emin Əliyev.
VAR: Tural Qurbanov.
AVAR: Teymur Teymurov.
Hakim-inspektor: Feyzulla Feyzullayev.
"Bank Respublika Arena"

19:30. "Sumqayıt" - "Qarabağ"
Hakimlər: Elvin Bayramov, Pərvin Talıbov, Mirnihat Seyidov, Nicat İsmayıllı.
VAR: Fərid Hacıyev.
AVAR: Eyyub İbrahimov.
Hakim-inspektor: Ceyhun Haşımov.
Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionu

**23 may**

15:00. "Kəpəz" - "Neftçi"
Hakimlər: Vüqar Həsənli, Elşad Abdullayev, Zöhrab Abbasov, Əli Əliyev.
VAR: Elçin Məsiyev.
AVAR: Kamran Bayramov.
Hakim-inspektor: Orxan Məmmədov.
Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionu

19:00. "Araz-Naxçıvan" - "Zirə"
Hakimlər: Əkbər Əhmədov, Akif Əmirəli, Zeynal Zeynalov, İslam M.əmmədov.




VAR: Kamal Umudlu.
AVAR: Asiman Əzizli.
Hakim-inspektor: İmanxan Sultani.
"SOCAR Polymer Arena"

**24 may**

16:00. "İmişli" - "Karvan-Yevlax"
Hakimlər: İnqilab Məmmədov, Namik Hüseynov, Tərlan Talıbzadə, Kamran Əliyev.
VAR: Rəşad Əhmədov.
AVAR: Rahil Ramazanov.
Hakim-inspektor: Zöhrab Qədiyev.
Quba Olimpiya İdman Kompleksinin stadionu

# Qurban Qurbanov yenidən "Beşiktaş"ın məşqçisi olmağa namizəddir

***"Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov "Beşiktaş"ın baş məşqçisi təyin edilə bilər.***



"Qafqazinfo" Türkiyə mətbuatına istinadən xəbər verir ki, uğursuz mövsümdən sonra İstanbul nəhəngi yeni baş məşqçi axtarışına başlayıb. Qurban Qurbanovla yanaşı, siyahıda Arda Turan, Nuri Şahin və İlhan Polat, Razvan Luçeskunun da adı var.

"Beşiktaş" Sergen Yalçınla yollarını ayırıb.

Qeyd edək ki, bundan öncə də Qurban Qurbanov "Beşiktaş"ın məşqçilər siyahısında yer almışdı.

# Neymar zədələndi



***Braziliya millisinin üzvü Neymar zədələnib.***

"Unikal" xəbər verir ki, bu barədə "O Globo" nəşri məlumat yayıb.

Hazırda "Santos"da çıxış edən 34 yaşlı vinger "Koritiba"ya qarşı keçirilən oyunda (0:3) sıradan çıxıb. Həkim müayinəsindən sonra futbolçunun sağ ayağının baldır əzələsində şişkinlik aşkarlanıb.

Dünya çempionatının yekun heyətinə daxil edilən futbolçunun vəziyyətinin nə dərəcədə ciddi olduğu ilə bağlı əlavə tibbi qiymətləndirmələrin aparıldığı bildirilir.

Qeyd edək ki, Neymar Braziliya millisinin heyətində keçirdiyi 128 oyunda vurduğu 79 qolla komandanın tarixində ən çox qol vuran futbolçudur.

# Kazemiro Messinin komanda yoldaşı olacaq

***"İnter Mayami" "Mançester Yunayted"in yarımmüdafiəçisi Kazemironu transfer etməyə yaxındır.***




QOL.az xəbər verir ki, bu haqda "The Athletic" məlumat yayıb.

34 yaşlı braziliyalı oyunçunun "Mançester Yunayted"lə müqaviləsi bu yay başa çatacaq. Florida təmsilçisi isə onun üçün əsas seçimdir. Tərəflərin yaxında müqavilə imzalayacağı gözlənilir. Klub təcrübəli yarımmüdafiəçini heyətinə vacib bir əlavə kimi görür.

Kazemiro 2022-ci ildən "qırmızı şeytanlar"ın formasını geyinir. O, cari mövsüm 35 oyunda 9 qol vurub və 2 məhsuldar ötürmə edib.

# Stolüstü tennisçilər Özbəkistandan 7 medalla qayıdırlar

***Azərbaycanın stolüstü tennisçiləri Özbəkistanın Andijan şəhərində Rafik Şiriyevin xatirəsinə həsr olunan ənənəvi turnirdə uğurla çıxış ediblər.***

Yarışda ən yaxşı nəticəni Mehin Mirzəbalayeva göstərib. 13 yaşadək idmançılar arasında bütün rəqiblərinə qalib gələn istedadlı idmançı fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Yalnız finalda uduzan Gülnur Kərimli (U 11) ikinci, Səidə Quluzadə (U 13) ilə Yağmur Məmmədli (U 15) üçüncü yeri tutublar.

Xatırladaq ki, mayın 13-dən 16-dək Daşkənddə təşkil olunan "WTT Youth Contender" turnirində Onur Quluzadə ikinci, Cəfər Almədədli ilə Mehin Mirzəbalayeva üçüncü olmuşdu. Beləliklə, gənclərdən ibarət milli komandalar Vətənə 7 mükafatla qayıdırlar.

# Rafael Ağayev 13-cü dəfə əməliyyat olundu

***Tanınmış karateçi, 5 qat dünya və 11 qat Avropa çempionu Rafael Ağayev 13-cü dəfə əməliyyat olunub.***

"Unikal" xəbər verir ki, bu barədə idmançı sosial media hesabında məlumat yayıb.

R.Ağayev bildirib ki, dizindən 5-ci dəfə əməliyyat edilib.

# Xabi Alonso: "Çelsi"nin layihəsi möhtəşəmdir"

***"Çelsi"nin yeni baş məşqçisi Xabi Alonso təyinatından sonra ilk açıqlamasını verib.***

QOL.az "The Atletic"ə istinadən xəbər verir ki, ispaniyalı mütəxəssis London təmsilçisinin layihəsindən razı qaldığını bildirib.

"Bu, möhtəşəm layihədir. Çox həyəcanlıyam və işə başlamağa hazıram" - deyə Alonso vurğulayıb.

Qeyd edək ki, "Çelsi" Xabi Alonsonun təyinatını mayın 17-də rəsmən açıqlayıb. 44 yaşlı mütəxəssis iyulun 1-dən etibarən komandanın sükanı arxasına keçəcək. Tərəflər arasında 4 illik müqavilə imzalanıb.

Klubun yaydığı açıqlamada Alonsonun baş məşqçi ilə yanaşı, menecer funksiyasını da yerinə yetirəcəyi bildirilib. Bu isə onun transfer siyasəti və komandanın inkişaf planında daha geniş səlahiyyətlərə sahib olacağı anlamına gəlir.